## Saakaşvili Qori Hərbi Hospitalına köçürülüb



**Gürcüstanın həbsdə olan sabiq Prezidenti Mixeil Saakaşvili saxlanıldığı 18 saylı Qldani həbsxana xəstəxanasından Qori Hərbi Hospitalına köçürülüb.**

APA-nın yerli bürosu xəbər verir ki, sabiq Prezident 50 gün boyunca keçirdiyi aclıq aksiyası nəticəsində səhhətində yaranmış problemlərlə əlaqədar müalicə alması üçün Qori Hərbi Hospitalına yerləşdirilib. Hospitalda M. Saakaşvili üçün xüsusi palatanın yaradıldığı bildirilir.

## Bayden yenidən səlahiyyətlərinin icrasına başlayıb



**ABŞ Prezidenti Cozef Bayden yenidən vəzifə səlahiyyətlərinin icrasına başlayıb.**

"Report" xəbər verir ki, bu barədə Ağ Evin mətbuat katibi Cen Psaki məlumat verib.

Psaki Baydenin əhval-ruhiyyəsinin yaxşı olduğunu bildirib.

"O, müayinəsinin qalan hissəsi üçün Uolter Rid Tibb Mərkəzində qalacaq", - sözçü əlavə edib.



## Avropa İttifaqı Şurasının prezidenti təklif irəli sürdü

Brüsseldə İlham Əliyevlə Paşinyanın görüşü planlaşdırılır

**Noyabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında telefon danışığı olub.**

Bu barədə Avropa İttifaqı Şurası xəbər verir. Şarl Mişel dekabrın 15-nə planlaşdırılan Şərq Tərəfdaşlığı sammiti çərçivəsində Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirməyi təklif edib. Cənubi Qafqazda firavanlıq və sabitliyi təmin etmək məqsədiylə regiondakı vəziyyəti və gərginliyin aradan qaldırılması yollarını müzakirə etmək üçün Brüsseldə görüşün keçirilməsi barədə razılıq əldə olunub. Telefon danışığı zamanı həmçinin insidentlərin qarşısının alınması mexanizmi rolunu oynayacaq Azərbaycan və Ermənistan arasında müdafiə nazirləri səviyyəsində birbaşa əlaqənin yaradılması haqqında razılıq əldə olunub.


❐ № 212 (5494), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 noyabr 2021-ci il (şənbə)




## Çavuşoğlu Lavrovla telefonla danışıb

Regiondakı son durum müzakirə edilib

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı Sergey Lavrovla telefonla danışıb. Bu barədə Türkiyənin Xarici İşlər Nazirliyi məlumat yayıb.**

Məlumatda bildirilir ki, telefon söhbətində nazirlər ikitərəfli əlaqələr və bəzi regional mövzularla bağlı müzakirə aparıblar.

Qeyd edək ki, Türkiyə Silahlı Qüvvələri Suriya və İraqda PKK və YPG terror təşkilatlarının üzvlərinə qarşı əməliyyatları davam etdirir. Türkiyənin Müdafiə Nazirliyinin məlumatına görə, əməliyyatlar nəticəsində 9 terrorçu zərərsizləşdirilib.

Vurğulanır ki, Türkiyə ordusunun İraqın şimalında keçirdiyi "Pençe-Kaplan" əməliyyatı zonasında üç yaraqlı zərərsizləşdirilib, digər terrorçular isə Suriya ərazisində keçirilən "Sülh mənbəyi" və "Zeytun Budağı" əməliyyatları zonasında neytrallaşdırılıb.

Ehtimal olunur ki, Türkiyə və Rusiyanın XİN başçıları həm İraq və Suriya ərazisində aparılan son əməliyyatları, həm də Azərbaycan-Ermənistan sərhəddindəki son gərginliyi müzakirə ediblər.

# Putinin bəyanatı reallığa söykənmir

Qarabağda rus sülhməramlılarının sayını artırmağa ehtiyac duyulmur



**Ermənistan-Azərbaycan sərhədindəki son hadisələr göstərir ki, regionda vəziyyət sakitləşməyib və Rusiya sülhməramlı kontingentinin saylarına tələbat var.**

Bu fikri Rusiya Prezidenti Vladimir Putin noyabrın 18-də Rusiya XİN kollegiyasının iclasında söyləyib. Putin xatırladıb ki, Rusiyanın vasitəçiliyi ilə "Dağlıq Qarabağda münaqişə" bir il bundan əvvəl dayandırılıb. Lakin Ermənistan-Azərbaycan sərhədində baş vermiş atışmalar göstərir ki, regionda vəziyyət hələ tam sakitləşməyib: "Stabilliyin təmin edilməsi üçün atəşkəs rejiminin və dinc əhalinin təhlükəsizliyinin qarantı kimi Rusiya sülhməramlı kontingentinin saylarına son dərəcə tələbat var". Rusiya rəhbərinin sözlərinə görə, Azərbaycanla Ermənistan arasında mübahisəli məsələlərin tənzimlənməsi üzrə səylərin davam etdirilməsində Rusiya diplomatiyasının rolu artır.

(səh.3)



## Ermənilərin sonuncu müqaviməti də qırıldı

Lavrov deyirsə ki, liderlərin görüşü olacaq, deməli razılaşma var

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Rusiya, Azərbaycan və Ermənistan liderlərinin görüşünün keçiriləcəyinə əmin olduğunu bildirib. Bu barədə o, Moskvada ATƏT sədri Ann Linde ilə görüşdən sonra keçirilən mətbuat konfransında bildirib. S.Lavrov qeyd edib ki, görüşün baş tutması üçün tərəflərin razılığı olmalıdır.**

**"Əminəm ki, belə bir görüş baş tutacaq", - deyə rusiyalı nazir vurğulayıb.**

(səh.4)

# Deyirlər adınız sistemdə yoxdur

Müharibə adamlarının əsəbləri tarıma çəkirlər



**"Gərək əlin, ayağın, qolun kəsilsin, gözün kor olsun ki, səni qazi hesab etsinlər.** Amputasiyası olmayanı əlil hesab etmirlər. Müharibənin yaraları bədənin təkcə kəsik ətraflarıyla ölçülməmelidir. Kantuziya, kəllə-beyin travması var, dəlib keçmiş güllə yarası var... Güllənin insanı dəlib keçməsi o deməkdir ki, güllə adamı 5-6 metrə qaldırıb yerə çırpıb. Belə vəziyyətdə daxili orqanlarda hər cür travma yarana bilər. Minaya düşmək, mərmi partlayışından döyüşçü kantuziya alır. Kantuziya elə bir şeydir ki, onun müalicəsi ümumiyyətlə yoxdur.

(səh.4)

## KİV: Ermənistanın Baş Qərargah rəisi istefaya göndərilir



**Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan istefaya göndərilir.**

APA-nın məlumatına görə, bu barədə Ermənistanda nəşr olunan "Joxovurd" qəzeti yazır.

Qəzet yazır ki, bununla bağlı artıq siyasi qərar verilib və yeni müdafiə naziri Suren Papikyan A. Davtyanın yerinə kadr axtarır.

*Nəşrin yazdığına görə, nazir hələlik bu addımı atmağa tələsmir, belə ki, bu posta uyğun kadr tapa bilmir. Hazırda məsələ mümkün kadrların axtarışı səviyyəsindədir.*

## Daha 2 233 nəfər koronavirusa yoluxub

28 nəfər ölüb, 2 401 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 233 yeni yoluxma faktı qeydə alınıb, 2 401 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 28 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 570 322 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 533 175 nəfər müalicə olunaraq sağalıb, 7 579 nəfər vəfat edib, aktiv xəstə sayı 29 568 nəfərdir.



## Təxribatçıların meyitləri Ermənistana təhvil verilib

Proses Rusiya sülhməramlılarının iştirakı ilə baş tutub

(səh.3)

## Kreml məkrli planlarını işə sala bilmir

Türkiyə regionda Rusiyanın ambisiyaları qarşısında dayanan ən güclü siperdir



(səh.2)

# ABŞ Gürcüstan hökumətini ədalətli və ləyaqətli davranmağa çağırdı



**ABŞ Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilinin oktyabrın 1-də həbs olunmasından sonra onunla davranışı yaxından izləyir".**

Bu barədə Dövlət Departamentinin bəyanatında bildirilib. Sənəddə Ombudsman Aparatının apardığı işlər yüksək qiymətləndirilib: "Biz Gürcüstan ombudsmanının onun vəziyyətinin qiymətləndirilməsi üçün müstəqil həkim qrupunun yaradılması üzrə işini yüksək qiymətləndiririk. Biz israrla Gürcüstan hökumətini Mixeil Saakaşvilini ədalətli və ləyaqətlə müalicə etməyə çağırırıq". ABŞ Dövlət Departamenti həmçinin Gürcüstan hökumətini sabiq prezidentin bütün məhkəmə dinləmələrində iştirakını təmin etməyə çağırıb: "Biz Gürcüstan hökumətini cənab Saakaşviliyə qarşı ədalətli və ləyaqətlə davranmağa, həmçinin ombudsmanın düzgün rəftarla bağlı tövsiyələrini nəzərə almağa çağırırıq. Biz həmçinin Gürcüstan hökumətini ciddi şəkildə tələb edirik ki, cənab Saakaşvilinin beynəlxalq hüquq normalarına uyğun olaraq ona qarşı davam edən cinayət işləri üzrə bütün məhkəmə iclaslarında iştirak etməsini təmin etsin. Cənab Saakaşvilinin ədalətli məhkəmə araşdırması hüququ var" deyə sənəddə qeyd olunub. Qeyd edək ki, həbsdə olan sabiq dövlət başçısının ötən gün vəziyyəti pisləşib. Noyabrın 8-də yerləşdirildiyi Tbilisinin Qldani həbsxanasının klinikasında yıxılaraq huşunu itirən siyasətçinin vəziyyəti reanimasiya tədbirləri nəticəsində sabitləşdirilib. Gürcüstan Ombudsmanı Aparatının bəyanatında bildirilir ki, Gürcüstanın eksprezidenti Mixeil Saakaşvilidə təhlükəli beyin xəstəliyi aşkarlanıb. Bəyanatda qeyd olunur ki, siyasətçi komaya düşə, nəticədə ölə bilər. Qeyd edək ki, bir müddət öncə sabiq prezident Mixeil Saakaşvili tərəfindən məşhur "Blomberg" nəşrinə məktub göndərilib. O, nəşrdə bildirib ki, ABŞ məni müdafiə etmək üçün hərəkətə keçməsə, bu regionda bütün qərbyönümlü liderlər və əhali üçün qorxunc bir siqnal olacaq. Nəşrin məlumatına görə, Mixeil Saakaşvili oktyabrda ölkəyə qayıtmasına səbəb kimi, Gürcüstanın NATO və Avropa İttifaqına inteqrasiyadan imtina etməsi və Rusiyanın oyunlarının içində olmasını göstərib. Saakaşvili həmçinin bildirib ki, həbsxanada ona fiziki təzyiq göstərilib, hələ də mülki xəstəxanaya köçürülmür və məhkəmə iclaslarına çıxmasına imkan verilmir. "Gürcü Arzusu" Partiyasının rəhbəri İrakli Kobaxidze aclıq aksiyası keçirən və hazırda vəziyyəti pisləşmiş sabiq prezident Mixeil Saakaşvilinin mülki xəstəxanaya yatırılması mövzusunu şərh edib. Kobaxidze bu barədə müvafiq qurumların qərar qəbul etməli olduğunu bildirib. "Bu məsələ barəsində müvafiq orqanlar qərar qəbul edəcəklər. Əlbəttə ki, səhiyyə və təhlükəsizlik məsələləri bərabər dərəcədə önəmlidir. Onlar cəmiyyətdə belə bir baxış yaratmağa çalışırlar ki, Saakaşvilini mülki klinikaya köçürən kimi ölkədəki bütün problemlər sona çatacaq. Cəmiyyətin bir qismində də bu cür baxış formalaşıb. Ancaq bütün bədbəxtliklər onun xəstəxanaya köçürülməsindən sonra baş tutacaq. Buna görə də biz müvafiq qərar qəbul edənədək bütün faktorları nəzərə almalıyıq. Siyasi və təhlükəsizlik baxımından ciddi təhlükələr mövcuddur. Hamı bilir ki, onların (VMH-nın) konkret məqsədləri var və bununla Saakaşvilinin azad edilməsi üçün müəyyən şanslar yaranacağını hesab edirlər. Onlar qan tökmək də daxil olmaqla, hər bir addım ata bilərlər. Əlbəttə ki, biz hər bir insanın sağlamlığına görə cavahdehik. Ancaq heç kim həyatının təhlükə qarşısında qalmasından sığortalanmayıb. Bu siyasi rejimin 9 illik hakimiyyəti dövründə nə qədər insanın həyatını itirdiyini xatırlayın. Biz heç kimə bu imkanı verməməliyik. Buna görə də müvafiq qurumlar məsələ ilə bağlı qərar verdikləri zaman hər iki faktoru nəzərə alacaqlar,"-deyə Kobaxidze əlavə edib.

**Asif Nərimanlı:**
"Qarşıdakı dövrdə Saakaşvilinin tezliklə azad ediləcəyi gözlənilmir, hakimiyyətin mövqeyi də bunu göstərir"

**Gürcüstanda baş verən son olayları "Şərq"ə şərh edən siyasi-analitik Asif Nərimanlı vurğulayıb ki, Saakaşvilinin səhhətində həqiqətən də problemlər var. Analitik qeyd edib ki, onun səhhətiylə bağlı xəbərlərin tirajlanması, gündəmdə saxlanılması və hər bir detalın gündəmə gətirilməsi Saakaşviliyə dəstəyin əldə edilməsidir:** "Gürcüstan müxalifəti gündəlik mitinqlər edir, lakin bu, faktiki olaraq onun azad olunmasına təsir etmir. Burada dəstəyin daha çox Qərbdən, Amerikadan alınmasıdır. Çünki Saakaşvili son müraciətlərin birində vəkili vasitəsilə Amerikaya çağırış göndərdi. O bildirdi ki, əgər siz məni xilas etməsəniz, bu, Qərb dəyərlərinin bu coğrafiyada ölməsi deməkdir. Bu onu göstərir ki, Saakaşvili Amerikadan istədiyi dəstəyi ala bilmir. Nə baş verir? Saakaşvili həbs olunacağını bilə-bilə Gürcüstana gəlmişdi. Burada hədəf yerli seçkilərlə bağlı idi. O hesab edirdi ki, gürcü xalqı küçəyə çıxacaq və o, ən azından növbədənkənar seçkilərin keçirilməsinə nail ola biləcəkdi. Bu, məsələnin bir tərəfi idi. Bilinirdi ki, Qərb tərəfindən Gürcüstana qarşı oyun qurulub. Qərb tərəfinin həm də məqsədi Gürcüstanın daxilində müəyyən bir təzyiqə nail olmaq idi. Çünki Gürcüstan son vaxtlar Rusiya ilə münasibətlərinə rəğmən "3+3" formata gələcəyi barədə müsbət siqnallar vermişdi. Həmin ərəfədə Saakaşvilinin Gürcüstana göndərilməsi bir növ Qərbin Gürcüstan hakimiyyətinə qarşı təzyiq mexanizmi idi, çünki onlar bu formata qarşıdır. Fikrimcə, qarşıdakı dövrdə Saakaşvilinin tezliklə azad ediləcəyi gözlənilmir, hakimiyyətin mövqeyi də bunu göstərir. Həm də Qərbdən daha kəskin reaksiyaların olmaması da buna əsas verir. Saakaşvili artıq bu prosesdə qurban getdiyini anlayır. Hesab edirəm ki, qarşıdakı aylarda hakimiyyətə qarşı mitinqlər ola bilər. Bundan artıq qarşıdakı dövrdə hansısa irəliləyişlərin gedəcəyini düşünmürəm".

**Aynurə Pənahqızı**



**Gürcüstan "altılıq platforması" təşəbbüsündə iştirak edə bilməyəcək. Bunu Gürcüstan Baş nazirinin müavini, Xarici işlər naziri David Zalkaliani Gürcüstan parlamentinin "Nazir saatı" formatında çıxışı zamanı deyib.**

# Qərb "altılıq platforması"nı istəmir

## Ona görə Gürcüstan bu təşəbbüsə qoşulmaqdan vaz keçib

O bildirib ki, məsələ ilə bağlı Gürcüstanın mövqeyini türkiyəli, azərbaycanlı və ermənistanlı həmkarları ilə keçirdiyi görüşdə aydın şəkildə səsləndirib. "Son zamanlar kifayət qədər aktiv şəkildə səsləndirilən "3+3" təşəbbüsü və Gürcüstanın bu formatda mümkün iştirakı ilə bağlı mənim türkiyəli tərəfdaşlar, həmçinin azərbaycanlı və ermənistanlı həmkarlarımla görüşüm olub. İran xarici işlər nazirinin Gürcüstana səfəri zamanı da biz bu məsələni müzakirə etdik. Biz bu layihədə iştirak edə bilməyəcəyik. Bu, geosiyasi layihədir. Amma Gürcüstan heç vaxt aqressiv ölkənin də iştirak etdiyi hansısa toplantıda və ya qrupda iştirak etməyəcək. Mən bu fikirləri Türkiyə, eləcə də Ermənistan tərəfi ilə görüşlərim zamanı kifayət qədər ucadan səsləndirmişəm",- deyə D.Zalkaliani bildirib.

**Mövzu ilə bağlı politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Gürcüstan eyni vaxtda həm Qərblə, həm də Rusiya ilə balansı qorumağa çalışır. Analitik qeyd edib ki, 2008-ci il müharibəsindən sonra Gürcüstan özünü Qərb ailəsinin bir üzvü sayır:** "Avroatlantik məkana inteqrasiya edir və Gürcüstan düşünür ki, gələcəkdə o, NATO ailəsinin və Qərb Atlantik ailəsinin bir üzvü olacaq. Yəni ümumi istiqamət budur. Amma bilirsiniz ki, İvanişvili Rusiya ilə müəyyən əlaqələri olan bir şəxsdir. O da eyni vaxtda ölkənin Rusiya ilə problemlərinin olmamasının və Rusiya ilə yaxınlaşmağın tərəfdarıdır. Amma bundan başqa Gürcüstanın Qərbə verdiyi sözlər də var. ABŞ Gürcüstanın hətta NATO üzvlüyü məsələsinə də irəliləyişin olacağı tərəfdarı kimi çıxış edir. Burada altılıq formatını isə Gürcüstan Rusiyanın olduğu bir format kimi görür və əlbəttə ki, Rusiyanın olduğu formatda Gürcüstan iştirak edə bilməz. Bunu Gürcüstan xalqına izah da edə bilməzlər. Çünki Gürcüstanda Rusiyaya düşmən münasibət hökm sürür. Gürcüstan yeni seçkidən çıxıb, üstəlik, Avropa İttifaqının və Qərbin müəyyən təzyiqləri var. Belə bir halda Gürcüstanın iştirakı düşünülə bilməzdi. Anlaşılan odur ki, Qərb bunu birmənalı olaraq istəmir, buna görə də belə formatda Gürcüstan açıq şəkildə iştirak edə bilməyəcək".

**Aynurə Pənahqızı**

# Təxribatçı ermənilərin meyitləri təhvil verilib

## Proses Rusiya sülhməramlılarının iştirakı ilə baş tutub

**Noyabrın 16-da Azərbaycanla sərhəddə təxribat törədərkən zərərsizləşdirilən 3 erməni hərbçisinin meyiti Ermənistana təhvil verilib.**

Proses Rusiya sülhməramlılarının iştirakı ilə baş tutub. Meyitlər İrəvana göndərilib.



*Qeyd edək ki, Ermənistan Müdafiə Nazirliyi noyabrın 16-da Azərbaycanla dövlət sərhədində törətdikləri təxribat nəticəsində 6 hərbçisinin öldüyünü, 24 hərbçisinin itkin düşdüyünü, 13-nün isə əsir götürüldüyünü açıqlayıb. Sərhəddə təxribat törədən zaman Azərbaycan Ordusu tərəfindən məhv edilən erməni hərbçilərin beşinin kimliyi müəyyənləşdirilib. Bunlar baş leytenant Taron Saakyan, müqavilə əsasında orduda xidmət edən Merjun Arutyunyan, Qurgen Sarkisyan, Artur Martirosyan və David Amiryandır.*

*Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində ölkəmizə qarşı genişmiqyaslı təxribat törədib.*

# Türkiyə-İsrail arasında münasibətlər normallaşır

## Ankara hökuməti bununla ABŞ-dan gələn siyasi-iqtisadi hücumları da zərərsizləşdirə bilər



İsmayıl Qocayev

**İsrailin Baş naziri Naftali Bennet Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışıb. Bu, İsrail hökumətinin başçısı ilə Türkiyə lideri arasında 2013-cü ildən bugünədək ilk telefon danışığıdır.**

Qeyd olunub ki, Bennet ötən həftə Türkiyə Prezidentinin iqamətgahını çəkdiyinə görə, İstanbulda həbs edilən israillilər Natali və Mordi Okninin azad edilməsində göstərdiyi səylərə görə Ərdoğana təşəkkür edib. Baş nazir, həmçinin Türkiyə və İsrail tərəfləri arasında humanitar məsələlərdə əməkdaşlıq səviyyəsini müsbət qiymətləndirib və əlavə edib ki, bu əməkdaşlıq öz səmərəliliyi ilə seçilir. Ekspertlərin qənaətincə, 8 ildən sonra ilk dəfə İsrailin baş nazirinin Türkiyə prezidentinə zəng etməsi təsadüf sayıla bilməz. Türkiyənin son dövrlər Aralıq dənizində, Yaxın Şərqdə, Şimali Afrikada, Cənubi Qafqazda, Mərkəzi Asiyada və balkanlarda artan nüfuzu İran və İsraili onunla əlaqələrə yenidən baxmağa və daha normal əlaqələr qurmağa vadar edir.

**Türkiyə-İsrail yaxınlaşması ilə bağlı "Şərq"ə fikirlərini bölüşən AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli deyib ki, Baş nazir Naftali Bennetin zənginin bir tərəfi məcburiyyətə dayanırsa, digər məqam Ankara ilə dil tapmaq, münasibətləri normallaşdırmaq üçün bəhanədir.** Partiya təmsilçisinin sözlərinə görə, Türkiyə prezidenti ölkənin maraqları naminə addımlar atır: "Əslində burada söhbət Ankara-Təl-Əviv münasibətlərindən daha çox Türkiyə ilə dünya yəhudiləri arasındakı münasibətlərin düzəlməsindən gedir. Dünya yəhudiləri ilə əlaqələrin normallaşması Türkiyənin maraqlarına cavab verir. Məlumdur ki, hazırda lirənin dəyəri dollara nisbətdə xeyli aşağı düşüb. Bunun arxasında müəyyən Qərb dövlətlərinin və strukturlarının olması bəllidir. ABŞ lirəyə qarşı "savaş" elan edib. Məqsəd Ərdoğan hakimiyyətini zəiflətmək, xalqın gözündən salmaqdır. Amerikada yəhudi lobbisinin təsir dairəsi çox güclüdür. O baxımdan indiki məqamda Türkiyə-İsrail münasibətlərinin normallaşması məqsədəuyğundur. Əgər əlaqələr tənzimlənərsə, Ankara hökuməti bu sayədə ABŞ-dan gələn siyasi-iqtisadi hücumları da zərərsizləşdirə bilər".

Hazırkı durumda Rusiya hərbçiləri yalnız Azərbaycan-Ermənistan sərhədində yerləşdirilə bilər



# Putinin bəyanatı reallığa söykənmir

## Qarabağda rus sülhməramlılarının sayını artırmağa ehtiyac duyulmur

**Ermənistan-Azərbaycan sərhədindəki son hadisələr göstərir ki, regionda vəziyyət sakitləşməyib və Rusiya sülhməramlı kontingentinin səylərinə tələbat var.**

Bu fikri Rusiya Prezidenti Vladimir Putin noyabrın 18-də Rusiya XİN kollegiyasının iclasında söyləyib. Putin xatırladıb ki, Rusiyanın vasitəçiliyi ilə "Dağlıq Qarabağda münaqişə" bir il bundan əvvəl dayandırılıb. Lakin Ermənistan-Azərbaycan sərhədində baş vermiş atışmalar göstərib ki, regionda vəziyyət hələ tam sakitləşməyib: "Stabilliyin təmin edilməsi üçün atəşkəs rejiminin və dinc əhalinin təhlükəsizliyinin qarantı kimi Rusiya sülhməramlı kontingentinin səylərinə son dərəcə tələbat var". Rusiya rəhbərinin sözlərinə görə, Azərbaycanla Ermənistan arasında mübahisəli məsələlərin tənzimlənməsi üzrə səylərin davam etdirilməsində Rusiya diplomatiyasının rolu artır. Kreml rəhbəri əlavə edib ki, Cənubi Qafqazda iqtisadi əlaqələrin bərpa olunması, həyati əhəmiyyətli nəqliyyat dəhlizlərinin açılması ilə bağlı baş nazirlərin müavinləri səviyyəsində dövlətlərarası müvafiq komissiya yaradılıb: "Fikrimcə, bu komissiyanın işinin perspektivləri pis deyil. Rusiya daxil olmaqla, regionun bütün ölkələri, bu problemlərin uzunmüddətli həllində maraqlıdırlar".

**Rusiya rəhbərinin açıqlamasını "Şərq"ə analiz edən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, Vətən müharibəsindən bir il ötməsinə baxmayaraq, kommunikasiyaların açılması və sülh sazişinin bağlanması ləngidilir.** Analitikə görə, sülhməramlıların başlıca vəzifəsi bölgədə 5 il müddətində qalaraq üçtərəfli sazişin bəndlərinin icra edilməsinə yardım etməkdir: "Amma Rusiyanın bu yöndə fəaliyyəti çox zəifdir. İndiyə qədər Rusiya rəsmilərinin bəyanatları ümidverici olsa da, reallıqda ortada nəticə yox idi. Putin sonuncu insidentlə bağlı çıxış edərkən "bölgədə Rusiya hərbçilərinin sayının artırılmasının vacibliyindən" danışması narahatlıq doğursa da, heç bir hüquqi əsası yoxdur. Azərbaycan ərazisində yerləşən Rusiya hərbçilərinin sayı və qalma müddəti konkret imzalanmış sazişlə tənzimlənir. Onun fəaliyyətinə Türkiyə-Rusiya birgə monitorinq qüvvələri tərəfindən nəzarət edilir. Hazırkı durumda Rusiya hərbçiləri yalnız Azərbaycan-Ermənistan sərhədində yerləşdirilə bilər. Lakin Ermənistanla sərhədlərimizin demarkasiyası prosesi olmadığından Rusiya qoşunlarının hansı mövqedə dayanacağı qeyri-müəyyəndir. O səbəbdən Putinin bəyanatının reallaşacağı mümkünsüzdür".

**V.Əfəndiyev vurğulayıb ki, ilk növbədə 10 noyabr sazişində əks olunan tələblər bütünlüklə yerinə yetirilməlidir:** "Bu baş verərsə, o zaman Rusiyanın bölgədə üstünlüyü azalacaq. Təbii ki, belə vəziyyət Moskvanı qane etmir. Heç Ermənistan da Rusiyanın daha çox müstəmləkəsinə çevrilməyə meyilli deyil. Bu ilin əvvəlində Avropa İttifaqı Zəngəzurun inkişafı üçün 1,5 milyard dollar yardımın ayrılmasına qərar versə də, bunun reallaşması üçün müəyyən şərtləri var. Aİ-nin bölgəyə diqqəti həm də Ermənistanı Rusiyadan daha az asılı etmək məqsədi daşıyır. Hazırda Rusiya iqtisadiyyatının Zəngəzurun infrastrukturuna böyük həcmdə maliyyə ayırmaq imkanları yoxdur. Buna baxmayaraq, Kreml Zəngəzura tam nəzarət etmək imkanlarını əldən vermək istəmir. Avropa İttifaqının ayırdığı 1,5 milyard dəstək yalnız o zaman həyata keçəcək ki, Paşinyan Avropa ilə Rusiya arasında seçim etmiş olsun. Zəngəzura Rusiyanın tam nəzarəti olarsa, Aİ-bu yardımdan heç nə qazana bilməyəcək. İndiki dövrdə isə heç bir qurum "qara qaşa, qara gözə" görə yardım etmir".

**İsmayıl Qocayev**





# Deyirlər adınız sistemdə yoxdur

## Müharibə adamlarının əsəbləri tarıma çəkilir

### "Ayağı amputasiya edilmiş qazimizin də pensiyası kəsilib"

**"Gərək əlin, ayağın, qolun kəsilsin, gözün kor olsun ki, səni qazi hesab etsinlər. Amputasiyası olmayanı əlil hesab etmirlər. Müharibənin yaraları bədənin təkcə kəsik ətraflarıyla ölçülməməlidir. Kantuziya, kəllə-beyin travması var, dəlib keçmiş güllə yarası var... Güllənin insanı dəlib keçməsi o deməkdir ki, güllə adamı 5-6 metrə qaldırıb yerə çırpıb. Belə vəziyyətdə daxili orqanlarda hər cür travma yarana bilər. Minaya düşmək, mərmi partlayışından döyüşçü kantuziya alır. Kantuziya elə bir şeydir ki, onun müalicəsi ümumiyyətlə yoxdur. Kantuziyalı adam ömrünün sonuna kimi müalicə almalıdır. Amma bizdə deyirlər ki, 6 aylıq müalicədən sonra adam sağalır".**

Bu kəskin etirazlar "Qarabağ Qaziləri" İctimai Birliyinin sədri Asəf Əliyevə məxsusdur. Müharibə belədir; qaziliklə yanaşı, əsəb, stres, gərginlik bu insanları həm də "əsəbi insanlar" kateqoriyasına daxil edib. Əsəbləri tarıma çəkənsə hazırda barəsində çox danışılan, mübahisə və müzakirələr gedən, ittihamlar səsləndirilən əlillik dərəcələrinin, buna müvafiq də pensiyaların düzgün təyini, pensiya almalı olan şəxslərin bir sıra hallarda pensiyaların kəsilməsidir. Səbəb kimi isə saxta əlillik dərəcələrinin təyini göstərilir. 2021-ci ildə bu sahədə araşdırmalar başlandı. Baş Prokurorluğa göndərilmiş sənədlər əsasında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Aparatının və tibbi-sosial ekspert komissiyalarının (TSEK) 20-yə yaxın əməkdaşı əmək funksiyalarının icrasında kobud nöqsanlara yol verdiklərinə görə vəzifələrindən azad edildilər. Həmçinin onlar barədə hüquqi qiymət verilməsi üçün sənədlər aidiyyəti cinayət təqibi orqanlarına təqdim olundu. Qanunsuz əməllərlə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlandı.

Lap yaxşı. Saxtakarlığa qarşı mübarizə aparılmalıdır. Amma bu, pensiyası qeyri-obyektiv kəsilən əlillərin vəziyyətini yaxşılaşdırmır. Həqiqətən də dövlət yardımına, pensiyaya möhtac olan şəxslər nə qədər gözləməlidir ki, saxta olmadıqları təsdiqlənsin və onlara təkrar pensiya təyin edilsin?

Qeyd edək ki, dünən məhz bu məsələlərə - əlilliyin qiymətləndirilməsi və reabilitasiya sahəsində görülmüş işlərə dair mətbuat konfransı keçirilib. **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov son zamanlar narazılığa səbəb olan, sosial şəbəkələrdə də çox müzakirə edilən məsələlər barədə açıqlama verib. A.Bayramov bildirib ki, bədəninin müəyyən orqanı amputasiya olunmuş şəxslərin guya təkrar müayinə edildiyi barədə bəzən əsassız fikirlər səslənir. Amputasiya olunan, məsələn, əli, ayağı və ya hər hansı bədən əzası olmayan şəxslərə əlillik müddətsiz (ömürlük) təyin olunur və heç zaman da müayinəyə çağırılmırlar. Sədr bildirib ki, əlilliyin qiymətləndirilməsinin rəqəmsal infrastrukturunun funksional imkanları, inteqrasiya dairəsi xeyli genişləndirilib:**

"Əlillik" altsistemində son aylarda 20-dən çox təkmilləşdirmə işi aparılıb, "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" adlı yeni altsistem də tətbiq edilib. Bu yeniliklər də tibbi-sosial ekspertizanın operativliyi və daha şəffaf həyata keçirilməsi, müraciətlərə obyektiv, çevik baxılması imkanlarını artırıb", - A.Bayramov deyib. 2021-ci ilin ötən dövründə artıq 50 minə yaxın şəxsə əlillik təyinatı həyata keçirilib. Əlilliyin qiymətləndirilməsi elektron infrastruktur ("Əlillik" altsistemi) üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında, vətəndaş-məmur (ekspert) təması olmadan həyata keçirilir. Göndərişin kimə aid olduğu və hansı tibb müəssisəsindən göndərildiyi bilinmədən, həkim-ekspertlər tərəfindən tam obyektiv və şəffaf şəkildə qərarlar qəbul edilir. A.Bayramov Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsinə də xüsusi qayğı və həssaslıqla yanaşıldığını deyib: "Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə qazilərin əlilliyinin qiymətləndirilməsi işləri operativ şəkildə yerinə yetirilir. İlk növbədə Komissiya üzvləri tərəfindən hərbi qulluqçuların əyani müayinəsi və müvafiq sənədləşdirmə işləri aparılır. Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) təqdim olunur və tibb müəssisələri tərəfindən göndəriş (forma 88) elektron sistemə daxil edilir. Yekun mərhələ kimi əlilliyin qiymətləndirilməsi aparılır. Ötən dövrdə Vətən müharibəsinin artıq 2200 qazisinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılıb və hazırda da bu işlər davam etdirilir", - deyə A.Bayramov bildirib.



**Asəf Əliyev:** "Problemin köklü həllini istəyirlərsə, Milli Məclisin 2016-cı ildə qəbul etdiyi qanuna düzəlişlər edilməlidir"

Bəzi KİV və sosial şəbəkə səhifələrində heç bir rəsmi məlumata istinad edilmədən, guya, "200 min şəxsin əlilliyinin ləğv edildiyi, pensiyasının kəsildiyi" kimi tamamilə əsassız olan, yanlış ictimai rəy yaratmağa yönələn fikirlər isə əlillik təyinatlarının şəffaflaşdırılması tədbirlərini gözdən salmağa, həssas qrupların adından manipulyasiya edərək onlarda aidiyyəti quruma qarşı inamsızlıq yaratmağa xidmət edir: "Əlilliyə görə sosial ödənişin kəsilməsi halı heç bir halda baş verməyib və hazırda da belə hal mövcud deyil. Həmin sosial ödənişlər əlillik müddəti ərzində verilir və əlillik müddəti bitdikdə həmin sosial ödənişin təyinat müddəti də bitmiş olur. Ona görə də əlilliyi olan şəxs əgər onun əlilliyi müddətlidirsə, əlillik müddətinin nə zaman bitdiyini bilməli və göndərişin həmin vaxtdan e-sistemə daxil edilməsi üçün lazımi tbbi sənədlərini vaxtında toplamalıdır". A.Bayramov qeyd edib ki, bir sıra hallarda qazilər əlillik qruplarını dəyişmək üçün müraciət edir. Belə müraciətlərə hərbi komissiyada baxılır: "Proses tam şəffaf aparılır. Müxtəlif təşkilatların nümayəndələri də iştirak edir. Orada qaziyə əlillik dərəcəsinin hansı meyarlara əsasən təyin edildiyi barədə məlumat verilir. Əgər səhhətlərində ağırlaşmalar varsa, təbii ki, qrupu dəyişdirilir. Elektron qiymətləndirmə aparılarkən səhv ola bilər, amma hərbi komissiyada əyani olaraq təyin edilir. Burada əlillik dərəcəsinin yanlış təyinatı ehtimalı çox azdır".

**"Qarabağ Qaziləri" İctimai Birliyinin sədri Asəf Əliyev isə bildirdi ki, problemin kökü ƏƏSMN-də deyil. Nazirlər Kabinetindədir:** - 2015-ci ildə ƏƏSM naziri vəzifəsində olan Səlim Müslümov əlillik dərəcəsi təyin ediləcək xəstəliklərin siyahısından bir çox xəstəliklərin adını çıxararaq yeni siyahını Nazirlər Kabinetinə təqdim edib. Milli Məclis də 2016-cı ildə bu siyahını müzakirə aparılmadan təsdiqləyib, qəbul edib. Problem də hazırda buna görə yaranır. Hansısa əlil pensiya üçün müraciət edəndə ona bildirilir ki, sistemdə bu xəstəlik yoxdur. Əlil də faktiki pensiya təyinatından məhrum qalır. Hazırda bizə əlillik dərəcələrinin təyini ilə bağlı xeyli müraciətlər edilir. Nəinki amputasiyası olmayan qazilər, başqa, müxtəlif yaralar almış şəxslər, ayağı amputasiya edilmiş qazimizin pensiyası kəsilib. Birinci Qarabağ müharibəsində döyüşmüş qazidir, 28 il əvvəl ayağı amputasiya edilib. II qrup əlildir. Amma pensiyası kəsilib. Deyir, Tibb Ekspertizaya müraciət edirəm, cavab verirlər ki, adın sistemdə yoxdur. Bu necə ola bilər? Elə qazimiz var, 8 aydır pensiya almır.

**A.Əliyev qeyd etdi ki, birliyə daxil olmuş şikayətlər əsasında ƏƏSMN-ə müraciət edilib, siyahı təqdim olunub:**

- Biz əlimizdə olan siyahını nazirliyə təqdim etmişik. Ümid edirik ki, qısa zamanda problem həllini tapacaq, pensiya almaq haqqı olanlar da özlərinə çatacaq pensiyanı alacaqlar:

- Problemin köklü həllini istəyirlərsə, Milli Məclisin 2016-cı ildə qəbul etdiyi qanuna düzəlişlər edilməlidir. Düzəlişlər qəbul olunanadək və icraya yönələdək də, əlillərə əvvəlki qayda ilə pensiyalar ödənməlidir. Çünki bu insanlar faktiki təminatsız qalıb.

**Məlahət Rzayeva**

# "Gürcüstanın vasitəçiliyi simvolik mahiyyət daşıyır"

## Sultan Zahidov: "Çünki masada Türkiyə, Rusiya kimi böyük güclər əyləşib"





**Noyabrın 17-də Gürcüstan Baş nazirinin müavini, Xarici işlər naziri David Zalkaliani azərbaycanlı və erməni həmkarları - Ceyhun Bayramov və Ararat Mirzoyanla görüş keçirib.**

Görüşlər "Şərq tərəfdaşlığı" ölkələrinin XİN başçılarının Brüssel toplantısı çərçivəsində baş tutub. Müzakirələr zamanı bölgədəki vəziyyət nəzərdən keçirilib.

D.Zalkaliani regionda sabitlik və sülhün gücləndirilməsinin və iki ölkə arasında gərginliyin aradan qaldırılmasının əhəmiyyətini vurğulayıb.

Nazir bildirib ki, Gürcüstan regionda dayanıqlı sülh və sabitliyin möhkəmləndirilməsi prosesinə töhfə vermək üçün səylər göstərməyə hazırdır.

**Tərəflərin görüşünü "Şərq"ə şərh edən beynəlxalq məsələlər üzrə mütəxəssis Sultan Zahidov deyib ki, Gürcüstan həmişə proseslərdə aktiv iştirak etməyə cəhd göstərib:** "1990-cı illərdən bugünədək rəsmi Tiflis Azərbaycanla Ermənistan arasında dəfələrlə vasitəçilik missiyasını öz üzərinə götürməyə səy göstərib. İkinci Qarabağ müharibəsində də Gürcüstan siyasi rəhbərliyi vasitəçilik təşəbbüsünü ortaya qoydu".

*Mütəxəssis hesab edir ki, münaqişənin həll edilməsi rəsmi Tiflisin gələcək siyasi vəziyyətinə müsbət təsir göstərəcək:* "44 günlük Vətən müharibəsi dövründə qonşu ölkədə ermənilər ayağa qalxmışdı. Gürcüstanın daxili təhlükəsizliyinin təmin olunması, eyni zamanda Azərbaycan-Ermənistan münaqişəsi arasında qalmamaq baxımından məsələnin sülh yolu ilə həlli qonşu ölkəyə dividend qazandırır. Həmçinin burada iqtisadi maraqları nəzərə almaq lazımdır.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanarsa, burada Gürcüstanın da faydaları olacaq, tərəfləri birləşdirəcək kommunikasiya xətlərinin açılması isə iqtisadi dividendlər qazandıracaq. Lakin Zəngəzur dəhlizinin açılması ilə rəsmi Tiflisin iqtisadi cəhətdən uduzmaq ehtimalı da var. Bu da onların əleyhinə ola bilər".

**S.Zahidov Gürcüstan tərəfinin cəhdlərinin simvolik mahiyyət daşıdığını vurğulayıb:** "Hər iki dövlətlə dostluq münasibətləri içərisindədir. Münaqişədə vasitəçi kimi iştirak etməyi özünün "mənəvi borcu" hesab edir. Amma nəzərə alınmalıdır ki, Gürcüstan bir o qədər də nüfuzlu dövlət deyil. Ona görə münasibətlərin normallaşmasında rəsmi Tiflis əhəmiyyətli rol oynaya bilməz. Çünki masada Türkiyə, Rusiya kimi böyük güclər əyləşib".

Ekspert sonda qeyd edib ki, Gürcüstan, Türkiyə, Rusiya və Azərbaycanın dəstəklədiyi "Altılıq platforması" da təmsilçilikdən boyun qaçırır: "Bu, Gürcüstan dövlətinin Rusiya ilə mənfi münasibətlərindən irəli gəlir".

**Aygün Tahir**

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Rusiya, Azərbaycan və Ermənistan liderlərinin görüşünün keçiriləcəyinə əmin olduğunu bildirib. Bu barədə o, Moskvada ATƏT sədri Ann Linde ilə görüşdən sonra keçirilən mətbuat konfransında bildirib. S.Lavrov qeyd edib ki, görüşün baş tutması üçün tərəflərin razılığı olmalıdır.**



# Ermənilərin sonuncu müqaviməti də qırıldı

## Lavrov deyirsə ki, liderlərin görüşü olacaq, demək razılaşma var

"Əminəm ki, belə bir görüş baş tutacaq", - deyə rusiyalı nazir vurğulayıb.

**Mövzuya münasibət bildirən BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Lavrovun əminliklə görüşün olacağını deməsi onu göstərir ki, son hadisələrdən sonra nəhayət ki, regionda vacib anlaşmaların olması gözləniləndir. Analitikin sözlərinə görə, Ermənistan rəsmilərinin açıqlamaları da onu deməyə əsas verir ki, nəhayət, onların son müqaviməti də qırılıb:** "Lakin nə qədər optimist olsaq da, qarşımızdakı erməni kimi ikiüzlü və Rusiya kimi məkrli dövlətlər var. Ermənistanın müqavimətinin qırılması heç də o demək deyildir ki, Rusiya imkan verəcək ki, Azərbaycan öz istəklərinə tam nail olsun. Bizə dəhliz lazımdır. Bu dəhlizdən gələcəkdə tək nəqliyyat üçün yox, Naxçıvanın qazla təminatı üçün qaz boru kəmərləri keçəcək. Hazırda bu işi İran vasitəsi ilə edirik. Biz İrana qazı sərhəddin Azərbaycan tərəfində veririk, əvəzində İran öz qazını Naxçıvan tərəfdən keçən sərhəddə Naxçıvana verir. Prosesin texniki tərəfləri, qaz itkisi bir tərəfə siyasi vəziyyətin də bir o qədər əlverişli olmaması da bu məsələni təhlükə altına alır. İranla olan son gərginlik buna misaldır. Bu baxımdan da, Zəngəzur ərazisindən nəqliyyat üçün ayrılan əraziyə dəhliz statusunun verilməsi bizim siyasi qazancımız olacaq".

"Rusiya buna qarşılıq Qarabağda rus sülhməramlılarının statusunu təsdiq etdirmək, hətta daha bir neçə beş ilə Qarabağda qalmağı tələb edə bilər"

Politoloq hesab edir ki, Rusiyanın belə bir məsələdə Azərbaycana dəstək olması və razılıq verməsi heç də asan və siyasi baxımdan ucuz başa gəlməyəcək: "Rusiya buna qarşılıq Qarabağda rus sülhməramlılarının statusunu təsdiq etdirmək, hətta daha bir neçə beş ilə Qarabağda qalmağı tələb edə bilər. Hər halda Zəngəzur dəhlizi açılmalıdır. Bu, Azərbaycanın əldə etdiyi uğurların üzərinə kölgə salmamalıdır".

**Aynurə Pənahqızı**

# Dəyişikliklərə gedilməlidir

## Azərbaycanın təcili yardım sistemi SSRİ dövründən qalıb




**”Təcili və təxirəsalınmaz xidmətlər bizim üçün vacib məsələlərdən biridir. Sentyabrda Türkiyə Səhiyyə Nazirliyindən bir qrup gəlib. Xüsusilə Türkiyə Səhiyyə Nazirliyi ilə ”Turkish Council” çərçivəsində birlikdə çalışmaq üçün araşdırma apardıq. İstanbulda Ümumdünya Səhiyyə Təşkilatının təcili vəziyyətlərlə əlaqədar regional ofisi var. Oradan da nümayəndələr gəlmişdi.**

Sentyabr ayındakı missiya həm TƏBİB, həm də Səhiyyə Nazirliyi ilə birgə qərar qəbul edib. Qərara əsasən, təcili yardım xidmətinin təkmilləşdirilməsi ilə əlaqədar birgə çalışacağıq və iş planı hazırlayacağıq”. Bu barədə ”Təcili yardım xidmətləri: Türkiyə təcrübəsi Azərbaycanda necə faydalı ola bilər?” mövzusunda keçirilən mini-simpoziumda Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı bildirib. O qeyd edib ki, bugünkü simpoziumda Türkiyədən gələn ekspertlər öz təcrübələrini bölüşəcəklər: ”Bunu edərkən də bu təcrübədən Azərbaycanın necə faydalanacağına dair açıqlamalar verəcəklər. Təbii ki, bir ölkədə olan modeli tam olaraq başqa bir ölkədə tətbiq etmək mümkün deyil. Hər ölkənin öz şərtləri, infrastrukturu, insan gücü var. Ehtiyacları, coğrafi quruluşu fərqli ola bilər. Bu səbəbdən də Türkiyə təcrübəsi sadəcə bir model, misal kimi nümayiş etdirilə bilər. Türkiyədən gələn ekspertlər bu həftə müxtəlif yerlərə gedəcəklər. Artıq onlar Azərbaycan Tibb Universitetinin, eyni zamanda Kliniki Tibbi Mərkəzin təmir olunan Təcili Tibbi Yardım şöbələrinə, 103 - Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına, Sumqayıt Təcili Tibbi Yardım Xəstəxanasına gediblər.

> “Təcili yardımda çalışan elə həkimlər var ki, intubasiya prosesini bilmirlər. Bu, xəstənin nəfəs yolunu açmaq, xəstənin nəfəs almasını təmin etmək üsuludur. Bunu yalnız reanimasiya həkimləri bacarır. Türkiyə həkimlərinə desən ki, bizim təcili yardım həkimləri bunu bilmir, təəccüb edəcəklər”

TƏBİB və Səhiyyə Nazirliyi ilə aparılan görüşlərdə Sumqayıt Xəstəxanası bu işlərin başlaması üçün pilot olaraq seçilib, hazırda orada işlərə başlanılıb. Xüsusilə iş görüləcək yerlər xəstəxanadan əvvəlki təcili tibbi yardım və xəstəxana içərisindəki təcili tibbi yardım xidmətlərinin gücləndirilməsi ilə əlaqəli olacaq. Həmin yerlərdə yeni heyətin təsis edilməsi ilə əlaqədar işlər də var. Bu səbəbdən Azərbaycan Tibb Universiteti və tibb kollecləri ilə işləmək də çox vacibdir. Azərbaycan prioritet seçdiyi məsələlərdə infrastrukturu sürətli şəkildə gücləndirə, lazım olan avadanlıqları da operativ şəkildə təmin edə bilir. Bizim burda görməli olduğumuz iş yaradılan infrastrukturda insanların daha sürətli şəkildə işləməyinə kömək etməkdir. Ona görə həmin yerlərdə sistemin qurulması və orada çalışacaq insanların bilgilərinin artırılması ilə bağlı işləri daha da gücləndirəcəyik”.

**Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov ”Şərq”ə açıqlamasında təcili yardım sahəsində təkmilləşməyə ehtiyac duyulan sahələrdən danışdı:**

- İlk növbədə təcili tibbi yardım stansiyaları, təcili yardım maşınları müasir tibbi avadanlıqlarla təchiz edilməlidir. Bu sahədə bəzi problemlərimiz var. Məsələn, Türkiyə ACİL-ləri ilə müqayisədə bizdə texniki məsələlərdə çatışmazlıq görünür. İkinci məsələ isə təcili yardım xidmətində taktiki dəyişikliklərə gedilməsinin vacibliyidir. Təcili yardımda çalışan elə həkimlər var ki, intubasiya prosesini bilmirlər. Bu, xəstənin nəfəs yolunu açmaq, xəstənin nəfəs almasını təmin etmək üsuludur. Bunu yalnız reanimasiya həkimləri bacarır. Türkiyə həkimlərinə desən ki, bizim təcili yardım həkimləri bunu bilmir, təəccüb edəcəklər. Yaxud da artıq nəfəsi kəsilmək üzrə olan, ya da qəza keçirmiş adamın nəfəs almasını təmin etmək üçün boğazda xüsusi alətlə dəlik açılması prosesi var. Bunlar riskli əməliyyatlar sayılır və hər həkim də buna cürət etmir. Lakin məsələ insan həyatının xilasıdırsa, həkim hər cür riskləri gözə almalıdır. Ürəyin fəaliyyəti dayandıqda elektroşokdan istifadə edirlər. Amma digər riskli proseslərə getmirlər. Azərbaycanda təcili yardım SSRİ, Rusiya təcrübəsindən istifadə edir. Halbuki dünyada artıq Avropa səhiyyə təcrübəsi mövcuddur. Türkiyə təcili yardımı da Avropa təcrübəsinə əsaslanır. Yaxşı olar ki, bizdə də təcili yardım köhnə sovet modelindən xilas olsun. Taktiki dəyişikliklərə gedilsin.

**Məlahət Rzayeva**



# “Rəsmi Kiyevin strateji hədəfi Türkiyəyə yaxınlaşmaqdır"

## Sədrəddin Soltan: “Ukrayna ordusu ilk dəfə döyüş bölgəsində ”Bayraktar TB2” PUA-larından istifadə edib”

**Ukrayna Ali Radası cümə axşamı keçirilən iclasda Ukrayna və Türkiyə hökumətləri arasında hərbi çərçivədə imzalanmış sazişi ratifikasiya edib.**

Müvafiq sənəd üçün minimum 226 səs tələbi olub. 303 parlamentari sazişin lehinə səs verib. Müqavilə Ukrayna Prezidenti Vladimir Zelenskinin Türkiyəyə rəsmi səfəri zamanı, 16 oktyabr 2020-ci ildə imzalanıb.

Sənəd müdafiə sahəsində Ukrayna-Türkiyə əməkdaşlığının 21 istiqamət üzrə genişləndirilməsi və dərinləşdirilməsi üçün hüquqi bazanın yaradılmasını nəzərdə tutur. Ölkələr arasında əməkdaşlıq xüsusilə, hərbi təlim, təlimlərdə və birgə təlimlərdə qarşılıqlı iştirak, müdafiə sənayesi və hərbi məxfi məlumatların mübadiləsini əhatə edəcək.

Qeyd edək ki, martın 6-da Ukrayna ordusuna Türkiyə istehsalı ”Bayraktar TB2” silahlı PUA-ları çatdırılıb.



**Bu ölkələr arasındakı münasibətlərdən danışan politoloq Sədrəddin Soltan ”Şərq”ə açıqlamasında bildirib ki, rəsmi Kiyevin strateji hədəfləri Türkiyə ilə Ukraynanın yaxınlaşmasına, hərbi əlaqələrin genişləndirməsinə imkan yaradır:** ”Türkiyə NATO ölkəsidir. Ukrayna da Qərbə, NATO-ya inteqrasiya etmək istəyən keçmiş sovet respublikalarındandır. Tərəflər Qara dəniz vasitəsilə qonşudur, eyni zamanda Ukraynada türklər, Krım tatarları var.

Oktyabrın 26-da Ukrayna ordusu ilk dəfə olaraq Ukraynanın şərqindəki döyüş bölgəsində ”Bayraktar TB2” PUA-larından istifadə edib.

Bu, rəsmi Kiyevin hərbi arsenalına müasir tələblərə cavab verən silahları qatmaq istədiyindən xəbər verir. Türkiyə istehsalı olan PUA-lar aparıcı silahlardandır.

Əgər Ukrayna ərazi bütövlüyünü bərpa etməyi qarşısına hədəf qoyubsa, ordusunu formalaşdırıb, silahlandırmalıdır”.

**Aygün Tahir**



# İrəvan sülhə, sabitliyə başlıca əngəldir

## Düşmən genişmiqyaslı təxribatlar göstərməklə prosesləri tormozlayır

**Aynurə Pənahqızı**

**“Noyabrın 16-da Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində ölkəmizə qarşı törətdiyi genişmiqyaslı təxribatlar bir daha rəsmi İrəvanın regionda sülhə, sabitliyə başlıca əngəl olan tərəf olduğunu sübut etdi”.**

Bu fikirləri ”Şərq”ə açıqlamasında siyasi-şərhçi Turan Rzayev deyib. Politoloq qeyd edib ki, Ermənistanın hərbi birləşmələri dövlət sərhədinin bu istiqamətindəki yüksəklikləri ələ keçirmək və hərbi üstünlüyə nail olmaqla daha əlverişli mövqelərə yiyələnməyə çalışmaları bu ölkənin nəinki sülhə hazır olmadığını, lazım gəldikdə hər an işğalçı siyasətini davam etdirəcəyini aydın şəkildə gözlər önünə sərir: ”Görünür, Ermənistan rəhbərliyində yanlış bir təəssürat formalaşıb ki, 44 günlük müharibə sonrası Azərbaycan arxayınlaşıb, ya da müharibənin bitdiyini düşünür. Elə məhz bu yanlış düşüncə genişmiqyaslı təxribat törətməklə qısamüddətli üstünlüyə nail olmaq istəyən Ermənistan hərbi bölmələrinin hücumunu iflasa uğratdı. Ermənistanın son təxribatları və Azərbaycanın adekvat cavab tədbirləri sonrası prosesin alovlanması bir sualı yenidən aktuallaşdırdı. Ermənistanın dövlət sərhədində gərginliyi artırmaqda məqsədi nədir? Aydın məsələdir ki, Ermənistan hakimiyyəti 44 günlük müharibədə ağır məğlubiyyəti, sonrakı dövrdə uğradığı mövqe itkilərini kompensasiya etmək və öz maraqları naminə regiona havadarı olan digər qüvvələri cəlb etmək istəyir. Təsadüfi deyil ki, Ermənistan Rusiyanı şantaj etməyə də cəhd göstərdi. Belə ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Rusiyanın və KTMT-nin məsələyə müdaxilə etməyəcəyi təqdirdə digər beynəlxalq tərəfdaşlara müraciət hüququnu özündə saxlaması barədə açıqlaması bunu bir daha sübut edir. Yəni Ermənistan bu addımı ilə bir daha regionda yaranan yeni reallıqla barışmaq istəmədiyini həmin reallığı öz maraqları naminə formalaşdırmaq üçün alternativ gücləri prosesə cəlb etmək istədiyini bir daha açıq şəkildə bəyan etdi”.

**T.Rzayev əlavə edib ki, prinsip etibarilə rəsmi İrəvanın bu mövqeyi bizim üçün yad deyil:** ”Ermənistandan fərqli nəsə gözləmirdik də. Bu mənada deyə bilərəm ki, Ermənistanın bu və bu kimi cəhdlərinin heç bir effekti yoxdur. Rəsmi Bakı regionda Ermənistanı hamıdan yaxşı tanıyır və İrəvanın atdığı addımları öncədən təxmin edir. Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətinə dəfələrlə Ermənistanın Şuşa, Laçın, Kəlbəcər istiqamətində hərbi təxribatlara əl atması, noyabrın 16-da genişmiqyaslı hücum həyata keçirməyə cəhd göstərməsi və yaranmış vəziyyətə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşməsini çatdırıb. Yəni indiki halda rəsmi Bakının atacağı ən sərt addımlara görə belə heç bir beynəlxalq güc Azərbaycanı ittiham edə bilməz. Mövcud gərginlik ilə bağlı artıq bir çox dünya dövləti və regionda marağı olan qüvvələr bəyanat verib. Misal üçün, noyabrın 16-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Bundan başqa ABŞ, Rusiya, Fransa, İtaliya və digər ölkələr məsələ ilə bağlı bəyanatlar veriblər. Bəyanatlarda narahatlıq ifadə olunmaqla yanaşı, sərhədlərin demarkasiyası və delimitasiyası ilə bağlı danışıqlara başlamağın vacibliyi vurğulanıb. Yəni bu həm də ondan xəbər verir ki, regionda marağı olan əksər ölkələr gərginliyin artmasında maraqlı deyil. Yəni bu məsələdə həmin dövlətlərin mövqeyi Azərbaycanın mövqeyi ilə üst-üstə düşüb. Azərbaycan artıq uzun müddətdir ki, sərhədlərin demarkasiyası və delimitasiyası, kommunikasiyaların açılması, sülh müqaviləsinin bağlanması təşəbbüsü ilə çıxış edir, Ermənistan isə bu çağırışlara reaksiya vermir. Beynəlxalq ictimaiyyətin mövqeyi göstərdi ki, Ermənistanın növbəti təxribatı, Azərbaycanı günahkar qismində təqdim etmək cəhdi iflasa uğradı”.

# "Dünyadakı gərginliklər böyük müharibə təhlükəsi yaradır"

## “NATO Ukrayna vasitəsi ilə Rusiya sərhədlərinə yaxınlaşıb”

**Rusiya Prezidenti Vladimir Putin Xarici İşlər Nazirliyinin Kollegiya iclasında çıxış edib. O qeyd edib ki, NATO Rusiya ilə qarşıdurmanı artırır. O, bir müddət əvvəl Rusiya diplomatlarının alyansa üzv olan ölkələrdən deportasiya edilməsinə baxmayaraq, artıq əməkdaşlıq etməklə bağlı bəzi siqnalların verilməkdə olduğunu bildirib.**



V.Putin həmçinin NATO-nun infrastrukturlarını Rusiya sərhədlərinə yaxınlaşdırdığını nümayiş etdirdiyini, dialoqun bütün mexanizmlərini təşəbbüskarlıqla sındırdığını vurğulayıb. Və NATO-nun Rusiya sərhədləri boyunca fəallıqlarına rəsmi Moskvanın cavab verəcəyini diqqətə çatdırıb.

**Rusiya-NATO gərginliyini ”Şərq”ə şərh edən Milli Strateji Tədqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Miri bildirib ki, NATO-nun təhdidlərini müəyyən mənada Rusiyanın aqressiv davranışlarına adekvat cavab kimi dəyərləndirmək olar:** ”Birtərəfli qaydada NATO-nun Rusiya əleyhinə yürütdüyü strateji bir xətt var. Bu da rəsmi Moskvanın tamamilə əhatə olunması və çevrələnməsindən ibarətdir. Ukraynada inqilabdan sonra qərbyönümlü hakimiyyətin iqtidara gəlməsi rəsmi Moskva üçün çox arzuolunmaz bir vəziyyət yaradıb. Artıq Ukrayna vasitəsi ilə NATO, demək olar, Rusiya sərhədlərindədir. Paralel olaraq Ukraynanın yerləşdiyi Qara dəniz ekvatoriyasında paralel olaraq, Gürcüstanın Qara dənizlə həmsərhəd ekvatoriyasında da zamanla hərbi təlimlər keçirilir. Ona görə də zaman-zaman adekvat addımlar atılır. Polşa ilə Belarus sərhədində baş verən hadisələr də bu gərginliyin tərkib hissələrindən biridir. Üzdə Lukaşenkonun rəhbəri olduğu Belarus olsa da, arxa səhnədə prosesin məhz Rusiya tərəfindən tətikləndiyini hər kəs bilir. NATO bu yöndə həyəcan təbili çalır. Şərqi Avropaya ola biləcək hər hansısa bir təhlükənin qarşısını almaq üçün müəyyən adekvat addımlar atır. Eyni zamanda bu gün Rusiya Ukraynanın sərhədlərində yüz minə yaxın qoşun toplayıb. Minlərlə tank və digər texnikaları da toplamaqla Ukrayna, Böyük Britaniya təhlükəsi yaradıb”.

*N.Miri artıq bu yöndə ABŞ-ın NATO rəhbərliyi ilə danışmağa başladığını və bütün bunların NATO-Rusiya əməkdaşlığının hələ də gərgin müstəvidə inkişaf etməsinin göstəricisi olduğunu söyləyib:* ”Mütləq mənada bugünkü dünya güclərinin oturub danışmağa ehtiyacları var. Bilirsiniz ki, NATO-nun sammitində strateji plan qəbul olundu, burda da əsas rəqib olaraq Çin və Rusiya göstərildi. ABŞ-ın bu yöndəki siyasəti ondan ibarətdir ki, stabilləşdirici və praqnozlaşdırıla bilən bir Rusiya ilə əməkdalıq qursun. Ancaq bu gün Rusiya proqnozlaşdırıla biləcək bir ölkə deyil.

> Natiq Miri: “Mütləq mənada bugünkü dünya güclərinin oturub danışmağa ehtiyacları var”



Çünki rəsmi Moskvanın Ukraynanın tərkib hissəsi olan Krımı, Sevastopolu, eyni zamanda cənub-şərq əyalətində Luqansk və Donbasın bir hissəsini işğal etməsi unudulmayıb. Ayrıca Donbası işğal etmək planı hələ də Rusiyanın masasındadır. Bütün bu təzyiqlər qarşılıqlı zaman-zaman ona görə edilir ki, qarşı tərəf bu təzyiqdən geri çəkilərək öz maraqlarında güzəştə getsin. Ancaq hələlik biz nə birtərəfli, nə də qarşılıqlı qaydada bunu görmürük”.

**Politoloq çox sürətlə bu güc mərkəzlərinin dünyanı böyük bir təhlükəyə doğru apardıqlarını vurğulayıb:** ”Hazırda bu proses Suriyada da, Liviyada da belədir. Liviyada həll olunmayan ciddi bir hakimiyyət məsələsi, Ukraynada Rusiya təcavüzü təhlükəsi hökm sürür. Cənubi Qafqazda stabillik yoxdur.

Ermənistan-Azərbaycan sərhədində hərbi gərginlik hələ də davam edir. Bu prosesin arxasında yalnız Azərbaycanla rəsmi İrəvanın düşmənliyi durmur. Bu, regionda qlobal güclərin geosiyasi maraqlarının bilavasitə toqquşduğunu göstərir. Buna görə də biz Rusiya NATO münasibətləri dedikdə əslində iki güc mərkəzinin regional səviyyədə müxtəlif geosiyasi maraqlarının qarşı-qarşıya durduğunu da nəzərə almalıyıq. Rusiya və NATO arasındakı münasibətlər yaxın perspektiv üçün müsbət mənada heç nə vəd etmir. Əksinə, qarşıdurma zaman keçdikcə artır, bu da yeni müharibə təhlükəsini gündəmə gətirir. 16 noyabr tarixində bir günlük də olsa Ermənistan-Azərbaycan sərhədində ciddi əməliyyatlar prosesi yaşandı. Eyni mənzərəni biz sabah Ukrayna-Donbas, Belarus-Polşa, Pribaltika ölkələri ilə Rusiya sərhədində də görə bilərik.

Bu təhlükələr hər zaman mövcuddur. Bu gün Aralıq dənizində çox ciddi bir qarşıdurma var. Artıq bəlli etmək olmur ki, dünyada kim-kimə qarşıdır. Türkiyə əslində NATO üzvü olmaqla bərabər eyni zamanda strateji müttəfiqi olan ABŞ tərəfindən ciddi iqtisadi sanksiyalara məruz qalır. Bu gün Türkiyə Suriyanın şimalından tutmuş Aralıq dənizi hövzəsindəki ölkələrə qədər ABŞ-ın Türkiyəni çevrələmək siyasəti ilə üz-üzədir”.

*Hazırda dünyada mövcud olan gərginlik müstəvisinin böyük müharibələrin başlamasına təhlükə yaratdığını deyən politoloq bu güc mərkəzləri arasında anlaşma olmadan dünyada sülhün, stabilliyin əlçatan olmayacağını diqqətə çatdırıb.*

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# "Kovidlə mübarizə bir çox ölkələr üçün ölüm-qalım savaşı sayılır"

### Hikmət Babaoğlu: "İlham Əliyevin peyvəndlərin bərabər paylanması ilə bağlı təşəbbüsü 171 ölkə tərəfindən dəstəklənib"

Mələhət Rzayeva

**2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxış edən Prezident İlham Əliyev bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayıb. Dövlət başçısı və Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etmişdi.**

Noyabrın 18-də BMT Baş Assambleyasının 3-cü komitəsində sözügedən qətnamə layihəsi müzakirə olunub və səsvermə ilə qəbul edilib. 171 ölkə qətnamənin lehinə səs verib. Heç bir ölkə qətnamənin əleyhinə səs verməyib. Qəbul edilən sənəd dekabr ayında bu dəfə artıq BMT Baş Assambleyasının plenar sessiyasında qəbul olunacaq. Qətnaməyə münasibətdə bitərəf qalmış 7 ölkədən biri regionda ən az peyvəndləmə səviyyəsinə malik Ermənistandır. Bu, Ermənistanın bütün məsələlərə, hətta humanitar məsələlərdə də Azərbaycanın nailiyyətlərini qısqanclıqla qarşılamasının nümunəsidir. Qeyd etmək lazımdır ki, kifayət qədər müfəssəl məzmunda olan qətnamədə digər məsələlərlə yanaşı, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilmiş bir sıra əhəmiyyətli qlobal təşəbbüslər, o cümlədən Prezidentin təşəbbüsü ilə 3-4 dekabr 2020-ci il tarixində keçirilmiş BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası alqışlanır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq ifadə edilir. Bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca faktorlardan biri olduğu vurğulanır. COVID-19-a qarşı mübarizədə çoxtərəfliliyin, eləcə də beynəlxalq həmrəylik və əməkdaşlığın əhəmiyyətinə xüsusi vurğu edilir. Bu xüsusda, bütün dövlətlər, özəl şirkətlər və digər aktorlar peyvəndlərlə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi istiqamətində konkret tədbirlər görməyə çağırılır. Bütün dövlətlər peyvəndlərin ixracı ilə bağlı mövcud olan əsassız maneələri aradan qaldırmağa və peyvəndlərin hazırlanması və səmərəli paylanması sahəsində əməkdaşlığa dəvət olunur. Heç şübhəsiz, sözügedən qətnamənin qəbulu Prezidentin sədrliyi ilə Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal səylərin mərkəzində olmağa davam etdiyinin daha bir göstəricisidir. Dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən olub. Dövlət başçısı bu istiqamətdə bir çox təşəbbüslər icra edib. 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı keçirilib. 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilib. Varlı və kasıb ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizə davamlı olaraq ölkə rəhbərinin gündəmində olub. Azərbaycan koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları göstərib. Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü maliyyə töhfəsi ayırıb. Bu yaxınlarda 4 ölkəyə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib. Dövlət başçısı cənab İlham Əliyevin vaksinlərlə bağlı problemi davamlı gündəmə gətirməsi çox vacib məqamdır. Ümumdünya Səhiyyə Təşkilatı bildirib ki, koronavirus epidemiyası qlobal miqyasda təsirlərini davam etdirir. Ümumilikdə 254 milyondan çox insan infeksiyaya yoluxub və 5 milyondan artıq şəxs virus səbəbindən həyatını itirib. Ardıcıl dördüncü həftədir ki, qlobal miqyasda yoluxma və ölüm saylarında artım müşahidə olunur. Ötən həftə 3,3 milyon insanın virusa yoluxduğu və bunun böyük hissəsinin də Avropa ölkələrinin payına düşdüyü vurğulanıb. Ekspertlər yoluxmaların artmasını əsasən virusun mutasiyaya məruz qalması nəticəsində daha yoluxucu "Delta" və "Delta+", yəni "Ay.4.2" variantının yayılması və mövsümlə əlaqələndirirlər. Bu səbəbdən pandemiyaya qarşı məhdudiyyətlər yenidən gündəmdədir. Yoluxma və ölüm sayının artması bir çox ölkəni əlavə tədbirlər görməyə məcbur edib. Bir çox ölkələr maska və sosial məsafə qaydalarını yenidən bərpa edib, qapanma tədbirlərinin tətbiqinə başlanılıb. Azərbaycanda isə görülən qabaqlayıcı tədbirlər sayəsində hələlik COVİD-lə bağlı vəziyyət hökumətin tam nəzarətindədir. Ölkədə vurulan vaksinlərin ümumi sayı 10 milyonu ötüb. Birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 milyon 12 min 689 nəfər, ikinci mərhələ üzrə isə 4 milyon 464 min 36 nəfərdir. Səhiyyə naziri əvəzi Teymur Musayev hələlik məhdudiyyətlərin tətbiq edilməsinə ehtiyac olmadığını açıqlayıb. Həkim-infeksionist Könül İsmayılova bildirib ki, hazırda epidemioloji vəziyyət ölkəmiz üçün stabil hesab oluna bilər, lakin, yanaşı olaraq mövsümi infeksiya halları izlənilməkdədir: "Təbii ki, daima yenilənən texnologiya və təbabət sahəsində sonunda hər bir tibbi problemin aradan qaldırılmasında nailiyyətlər əldə olunacaq. Koronavirusla mübarizədə tibdə digər virus xəstəlikləri üçün istifadə olunan virus əleyhinə preparatlar da tətbiq olunur və zamanla bu preparatların effektivliyi qiymətləndirilir. Koronavirusa qarşı dərmanların sayının artması əsas deyil, bu preparatların effektivliyi və insan sağlamlığı üçün təhlükəsizliyi önəmlidir".




Səhiyyə nazirinin müavini Rahim Əliyev də bildirib ki, maarifləndirmə aparılan, təhsilin yüksək olduğu yerlərdə peyvəndləmə faizi yüksəkdir: "Peyvəndlərin vaxtında aparılmasına dair dövlət proqramları var. Bunlar xəstəliklərin erkən aşkarlanmasında mühüm rol oynayır. İki il bundan əvvəl COVID-lə bağlı qaydalara riayət edilməməsini görürdük. Lakin bu gün açıq havada belə maska taxanlar var. Maarifləndirmə sahəsində irəliləyişlər var. Beləliklə, insanlarımızda sağlamlıq mədəniyyəti formalaşıb".

**Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan beynəlxalq münasibətlərin sistemində təkcə milli dövlət, beynəlxalq münasibətlərin müstəqil aktoru kimi deyil, eyni zamanda üzvü olduğu mühüm beynəlxalq təşkilatlar vasitəsi ilə iştirak edir. Deputat vurğulayıb ki, Azərbaycan öz maraqları ilə yanaşı, qlobal gündəmi təyin edən əsas məsələləri də müzakirələrə çıxarır**: "Ölkə rəhbərimiz daim mühüm təşəbbüslərlə çıxış edir. Bilirik ki, hazırda Azərbaycan BMT-dən sonra dünyanın ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edir. Hərəkat üzvlərinin tələbi üzərinə Azərbaycanın sədrliyi 6 ay uzadıldı. Dünyanın ən aktual problemlərindən biri olan COVİD 19 pandemiyasına qarşı mübarizədə Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı mühüm missiya həyata keçirməkdədir. Hələ koronavirus pandemiyası yeni yarandığı zaman Azərbaycan Prezidenti müxtəlif təşəbbüslərlə çıxış edib. Nəticədə BMT Baş Assambleyasının pandemiyaya görə xüsusi sessiyası keçirilib. Dövlət başçısı cənab İlham Əliyevin peyvəndlərin bərabər paylanması ilə bağlı təşəbbüsü də 171 ölkə tərəfindən dəstəklənib. Bu da koronavirusa qarşı mübarizə ilə bağlı addımdır. Azərbaycan rəhbərliyi dəfələrlə bəyan etmişdi ki, bütün ölkələr üçün vaksinlərin əlçatanlığı təmin olunmalı, pandemiyaya qarşı mübarizədə əlverişli şərait yaradılmalı və bütün dövlətlərə ortaq imkanlar tanınmalıdır. Bu təşəbbüs BMT tərəfindən yüksək qiymətləndirildi və qətnamə qəbul edildi. Reallıq odur ki, dünyada bir sıra ölkələr üçün COVİD-lə mübarizə ölüm-qalım savaşı sayılır. Pandemiyaya qarşı mübarizədə çox çətin şərtlər ortaya çıxmışdı. Hətta "covid milliyətçiliyi" deyilən anlayış ortaya çıxmışdı. Bu da üçüncü ölkələrdə xəstəliyə qarşı mübarizəni mürəkkəb hala salırdı. Belə şəraitdə Azərbaycanın vaksinlərlə bağlı təşəbbüsünün dəstəklənməsi mühüm humanitar aksiya olmaqla yanaşı, həm də imkanları məhdud olan ölkələrin koronavirusa qarşı mübarizəsində yeni mərhələ yaradacaq və onlara böyük dəstək olacaq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Detallarla bağlı danışıqlar gedir

### Dünya Bankı da Qarabağın quruculuğunda maraqlıdır

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 18-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerdenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, görüşdə gələn il Azərbaycan ilə Dünya Bankı arasında tərəfdaşlığın qurulmasının 30 illiyinin qeyd olunacağı bildirilərək ötən müddət ərzində müxtəlif istiqamətlərdə birgə uğurlu layihələrin həyata keçirildiyi qeyd olunub. Baş nazir Ə.Əsədov Azərbaycanın Dünya Bankı ilə əməkdaşlıqdan məmnun olduğunu və əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib.

Anna Byerden bildirib ki, ötən illər ərzində Azərbaycan aşağı gəlirli ölkədən yüksək gəlirli donor ölkəyə çevrilib. O, habelə Azərbaycanda peyvəndlənmənin yaxşı səviyyəyə malik olduğunu qeyd edərək bu sahədə fəaliyyətin uğurlu olduğunu deyib. A.Byerden 2021-ci ildə Azərbaycan iqtisadiyyatında artımın müşahidə olunmasının da yaxşı göstərici olduğunu vurğulayıb.

Görüşdə Dünya Bankının hazırlanmaqda olan Azərbaycana dair yeni Ölkə Tərəfdaşlıq Çərçivə sənədi, Bankın Azərbaycanın "2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsində və işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı, Dünya Bankının və onun strukturuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanın özəl sektoru ilə əməkdaşlığının genişləndirilməsi, həmçinin Bank ilə ölkəmiz arasında kənd təsərrüfatı, rəqəmsal inkişaf, bərpa olunan enerji mənbələri və bir çox digər sahələrdə tərəfdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

Sonda Azərbaycan Respublikasında ofislərin qurulması və fəaliyyətinə dair Azərbaycan Respublikası və Dünya Bankı Qrupu Təşkilatları arasında yeni Saziş imzalanıb. Sazişi Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifov və Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerde imzalayıblar.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, müxtəlif beynəlxalq maliyyə institutları, o cümlədən Dünya Bankı Azərbaycanla uzun illərdir ki, səmərəli əməkdaşlığa malikdirlər.** Ekspert qeyd edib ki, işğaldan azad olunmuş torpaqlarda da Dünya Bankının müxtəlif layihələrdə, əsasən də infrastruktur layihələrdə iştirakı mümkündür: "Çox güman ki, bununla bağlı danışıqlar da gedir. Sadəcə, Ümumdünya Bankı və bu tip maliyyə institutları hansısa bir layihələrə maliyyə ayırarkən, o layihələrin icrasına nəzarət mexanizmlərinin də öncədən hazır olmasını istəyirlər. Ola bilər ki, bu detallarla bağlı Azərbaycan hökuməti ilə müəyyən danışıqlar gedir. Çox güman ki, infrastruktur layihələri olacaq. Çünki Dünya Bankı, Beynəlxalq Valyuta Fondu struktur layihələrində maraqlıdırlar və bu iştirakda yeni texnologiyaların tətbiqi, yeni ideyaların tətbiqi istiqamətində Dünya Bankının iştirakı bu məsələlərdə də yardımçı ola bilər".

**Aynurə Pənahqızı**

## Kərim Şükürov xəstəxanadan evə buraxılıb



**AMEA Tarix İnstitunun direktoru Kərim Şükürov xəstəxanadan evə buraxılıb.**

Bu barədə APA-ya qızı Lalə Şükürova məlumat verib.

O qeyd edib ki, atası bu gün evə buraxılıb.

*Qeyd edək ki, Kərim Şükürov bir müddət əvvəl korinavirusa yoluxmusdu. O Mərkəzi Gömrük Hospitalında müalicə alırdı. Süni tənəffüs aparatına qoşulmuşdu.*

## Saakaşvili hökumətlə razılaşdı...

### Qori xəstəxanasına köçürülür, aclıq aksiyasını dayandıracaq



**Gürcüstanın eks prezident Mixeil Saakaşvili Qori Hərbi Hospitalına köçürülməyə razılıq verib.**

Bu barədə Saakaşvilinin vəkili Nika Qvaramiya açıqlama verib.

Qldani cəzaçəkmə müəssisəsində sabiq prezidenti ziyarət edən Qvaramiya deyib ki, Saakaşvili aclıq aksiyasını da dayandıracaq:

"Saakaşvili Qori xəstəxanasına köçürülməyə razıdır və Qori xəstəxanasına daxil olan kimi aclıq aksiyasını dayandıracaq. Bizim orada hər şey normal vəziyyətdə olduğunu bilməyimiz vacibdir. Aclıq aksiyasını dayandırdıqdan sonra, mütəxəssislər tərəfindən protokol hazırlanmalı və gündəlik hesabat təqdim edilməlidir", - deyə Qvramia bildirib.

Onun sözlərinə görə, Mixail Saakaşvili bu gün (dünən) Qori xəstəxanasına aparılacaq.

*Xatırladaq ki, bu gün Ədliyyə Naziri Rati Breqvadze, Mixeil Saakaşvilinin Qldani həbsxanasının tibb müəssisəsindən Qori Hərbi Hospitalına köçürülməsini təklif edib.*

# Bakının atacağı addımlar çox önəmlidir

### Cənubi Qafqaz regionu yenidən bölünmə ərəfəsindədir



*"Vaşinqtonun bölgədə öz maraqları, baş verənlərə öz siyasi baxışları var və bu, Rusiyanın əleyhinə siyasi baxışlardır"*

**Xarici işlər naziri Ceyhun Bayramovun ABŞ Dövlət Katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridlə telefon danışığı baş tutub. Danışıq zamanı tərəflər üçtərəfli bəyanatların icrası və digər regional təhlükəsizlik məsələləri ərtafında fikir mübadiləsi aparıblar.**

Donfrid Azərbaycan və Ermənistan sərhədində yaşanan gərginlikdən narahatlığını ifadə edib. Amerika rəsmisi hər iki tərəfi deskalasiyaya və fikir ayrılıqlarını sülh yolu ilə həll etməyə çağırıb. Nazir Ceyhun Bayramov isə son günlərdə Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilən silsilə təxribatçı addımlar barədə qarşı tərəfə ətraflı məlumat verib. Nazir bölgədə vəziyyətin gərginləşməsi məsuliyyətinin bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü vurğulayıb. Xatırladaq ki, ötən gün ABŞ dövlət katibi Entoni Blinken də tvitterdə sərhəd insidentinə münasibət bildirmiş, tərəfləri sülhə çağırmışdı. Ekspertlərin fikrincə, Amerikanın Azərbaycan-Ermənistan sərhədində baş verənlərə çevik reaksiya verməsi və bir neçə rəsmisinin diliylə narahatlığını ifadə etməsi Ağ Evin Cənubi Qafqazla bağlı maraqlarından qaynaqlanır.

**Vaşinqtondan gələn zəngi "Şərq"ə təhlil edən beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, Cənubi Qafqaz regionu yenidən bölünmə ərəfəsindədir. Analitikin fikrincə, Gürcüstanda həyata keçirilən "Saakaşvili layihəsi" də bu siyasətin tərkib hissəsidir:** "Hazırda Ermənistanda Rusiyanın layihələri üzərində iş gedir. Azərbaycan isə bölgənin yeganə ölkəsi kimi təhlükəsizlik prizmasından böyük önəm daşıyır. Belə məqamda rəsmi Bakının atacağı addımlar çox vacibdir. Qafqazın təhlükəsizliyi regionla bağlı planlar quran ölkələrin qarşısında sədd olan Azərbaycanın təhlükəsizlik davranışından asılıdır. ABŞ-ın Cənubi Qafqaza nüfuz etmək niyyətində olması bəllidir. Türkiyə bölgədə müəyyən mənada Qərbin təmsilçisi kimi mövcuddur. Lakin Rusiyanın bölgədəki siyasəti, Moskvanın SSRİ nostalgiyasının artması, Belarus və Polşa sərhədlərində yaşananlar, Ukrayna problemi, ardınca Azərbaycan-Ermənistan sərhədində baş verənlər, Saakaşvili ətrafında cərəyan edənlər Kremlin hansısa planlarının olduğuna işarədir. Bu baxımdan ABŞ da öz planını dövriyyəyə buraxmaq istəyir. O səbəbdən tərəflər proseslərə, eskalasiya prosesinə, hərbi qarşıdurmalara fürsət kimi baxırlar. Vaşinqtonun bölgədə öz maraqları, baş verənlərə öz siyasi baxışları var və bu, Rusiyanın əleyhinə siyasi baxışlardır. Əslində isə Qərb üçün bölgədəki qarşıdurmalar, insan haqlarının pozulması halları qətiyyən maraqlı deyil".

**İsmayıl Qocayev**

# Depressiya zamanı insanlar intihara daha çox meyl edirlər

## Bunlar daha çox yaz və payız aylarında özünü qabarıq şəkildə göstərir



**1991-ci il təvəllüdlü Həsənov Elşən Ədalət oğlu bir neçə gün əvvəl Abşeron rayonu Saray qəsəbəsində itkin düşüb. E.Həsənovun intihar etdiyi aşkar olunub.**

Onun meyiti Corat qəsəbəsində dəniz sahilində tapılıb. 30 yaşlı Elşənin 12 noyabr özünü dənizə ataraq intihar etdiyi, sonra dalğaların meyiti sahilə çıxardığı məlum olub.

Məlumata əsasən, Elşən Həsənovun anası Rəfiqə Həsənova da noyabrın 12-də intihar edib. Həmin gün E.Həsənov anasının yaşadığı evin həyətində özünü asaraq həyatına son qoyduğunu görüb. Gənc dərin sarsıntı keçirərək evdən çıxıb, dəniz sahilinə yollanıb.

Hər iki faktla bağlı araşdırma aparılır.

**Son zamanlar günümüzün bəlasına çevrilən intihar hadisələri ilə bağlı "Şərq"ə danışan psixoloq Elnur Rüstəmov bildirib ki, intihar səbəbləri müxtəlif ola bilər:** "Depressiya zamanı insanlar intihara daha çox meyl edirlər. Amma bu, o demək deyil ki, psixoloji gərginlik keçirən hər kəs öz həyatına son qoyur. Bilərəkdən canına qıyan insanların böyük bir qismi o vəziyyətə düşənlərdir. Psixologiyada da qeyri-rəsmi olaraq mövsümi depresiya adlanan bir anlayış var. Yəni fəsillərin dəyişməsi ilə insanların əhvali-ruhiyyəsi də bəzən kəskin formada təzahür edir. Bunlar daha çox yaz və payız aylarında özünü qabarıq şəkildə göstərir".

**Psixoloq həmçinin qeyd edib ki, xüsusən də həssas insanlar belə bir situasiyada intihar kimi düşüncələrə qapıla bilir:** "Ümidsiz düşüncələri, fikirləri də özlərindən kənar qoymurlar. Bunlar da öz növbəsində özünəqəsdlə nəticələnir. Hazırda informasiyanın bol olduğu bir dönəmdə yaşayırıq. Hər bir informasiyanın da emosional yükü var. Bəzən qəbul etdiyimiz məlumatlardan kədərlənirik, sevinirik. Bütün bunlar sürətli baş verir, nəticədə insanın ovqatı tez-tez dəyişir. Ona görə də bu gün psixoloji sağlamlığın, təhlükəsizliyin qorunması bütün inkişaf etmiş ölkələrdə prioritet istiqamətdir. Psixi gümrahlığın müdafiəsi üçün kitab oxumaq, yürüş, idman etmək, bir sözlə, sevilən işlə məşğul olmaq fərdə bağlıdır. Cəmiyyət olaraq neqativlərdən mümkün qədər uzaq durmaq, pozitivə köklənmək lazımdır".

**Sücayət Mehti**



# Türkiyədə güclü zəlzələ baş verib

## Dağıntılar altında qalan 2 nəfər sağ çıxarılıb

**Türkiyənin Ərzurum şəhərində baş verən 5,1 bal gücündə zəlzələ nəticəsində 2 kənddə dağıntılar baş verib.**

Report xəbər verir ki, bu barədə səhiyyə naziri Faxrettin Koca tviterdəki hesabında yazıb.

O, bildirib ki, zəlzələ zamanı 4 nəfər xəsarət alıb. Zəlzələ ilə bağlı bölgəyə 5 təcili tibbi yardım maşını, 27 səhiyyə işçisi cəlb olunub.

Qeyd edək ki, yeraltı təkanlar Köprüköy rayonunda yerli vaxtla saat 15:40-da qeydə alınıb.

Türkiyənin Fövqəladə Halların İdarəolunması Agentliyinin (AFAD) məlumatına görə, zəlzələ 12 saniyə davam edib. Ərzurum valisi Okay Memiş dağıntılar altında qalan 2 nəfərin sağ çıxarıldığını bildirib. Zəlzələdən sonra yüksəkliklərdən düşən qayalar Hınıs-Tekman yolunu bağlayıb.

Zəlzələ ocağı 5 kilometr dərinlikdə yerləşib. Yeraltı təkanlar həmçinin Ağrı, Diyarbakır və Muş şəhərlərində də hiss olunub.

# Azərbaycanda kənd təsərrüfatı məhsulları ucuzlaşacaq

## Gələn ildən kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanacaq




**Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin enməsi üçün zəmin yaranacaq. Bununla bağlı Vergi Məcəlləsində kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışına güzəştlər tətbiq ediləcək.**

2022-ci ilin 1 yanvar tarixindən 2 il müddətində kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması təklif olunur.

Dövlət Vergi Xidmətindən bildiriblər ki, dəyişikliyə əsasən, kənd təsərrüfatı məhsullarının bütün satış zənciri üzrə ƏDV həmin məhsulların tam dəyərindən deyil, tətbiq edilən ticarət əlavəsindən hesablanacaq. Mövcud vəziyyətdə istehsalçıdan alınan kənd təsərrüfatı malları ƏDV-dən azad olunan əməliyyatla alındığı üçün həmin malların sonrakı satışı 18 faiz dərəcə ilə ƏDV-yə cəlb edilirdi. Dəyişiklik nəticəsində ƏDV bu malların ticarət əlavəsindən hesablanacağı üçün ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin enməsi üçün zəmin yaranacaq.

**Dəyişikliyi şərh edən iqtisadçı Natiq Cəfərli Sputnik Azərbaycan-a deyib ki, bu gün əhalinin çoxu marketlərdən alış-veriş edir, bazarlar xeyli azalıb:**

"Marketlər kənd təsərrüfatı məhsulunu 1 manata alıb, 1 manat 30 qəpiyə satacaqsa, burada 30 qəpiyin əlavə dəyər vergisi hesablanacaq. Yəni bu, 1 manata şamil edilməyəcək. Məsələn, 1 manat 30 qəpiyin 18 faizi təxminən 20 qəpik edirsə, 30 qəpiyin 18 faizi təxminən 5 qəpik edəcək. Əvvəl isə ƏDV, məhsulun tam dəyərinin 18 faiz dərəcəsi ilə hesablanırdı. Bu addım kənd təsərrüfatı məhsullarının qiymətinə müəyyən qədər təsir edəcək".

"Kənd təsərrüfatı məhsullarının satış qiyməti o qədər də böyük deyil. Bu, satış qiymətinin marjasından asılı olacaq. Marketlər üçün marja nə qədər yüksək olacaqsa, ƏDV də o qədər yüksək olacaq. Bunu ona görə edirlər ki, supermarketlər məhsulun üzərinə daha çox marja qoymasınlar. Bu addımın ümumi qiymətlərə ən azından 3-5 faizlik təsiri olmalıdır", - deyə o əlavə edib.

*Qeyd edək ki, digər dəyişikliyə əsasən, kənd təsərrüfatı texnikalarının operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlərin ƏDV-dən azad edilməsi təklif olunur.*

*Dövlət Vergi Xidmətindən bildiriblər ki, kənd təsərrüfatı məhsullarının istehsal üzrə ƏDV-li xərc elementlərinin ƏDV-dən azad olunması (kənd təsərrüfatı məhsullarının istehsalçılarına göstərilən aqrotexniki xidmətlərin və onlara kənd təsərrüfatı texnikasının icarəyə (lizinqə) verilməsinin ƏDV-dən azad edilməsi) istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyərinin aşağı düşməsi ilə nəticələnəcək. Bu da qiymətlərin azalmasına təsir edəcək.*

**Elan**

18.01.2016-cı il tarixində verilən Odlar Yurdu MTK-ya məxsus olan Müqavilə № 1130 itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Azercell şəhid övladlarıyla yanaşı şəhidlərin həyat yoldaşlarına da təhsil üçün təqaüd ayırdı

**Fəaliyyətə başladığı gündən etibarən sosial layihələri ilə seçilən "Azercell Telekom" MMC 44 günlük Vətən müharibəsi dövründə canından keçən və böyük qəhrəmanlıq nümunəsi olan şəhidlərimizin ailələrinə dəstəyini davam etdirir.**

10 ildən artıq müddətdir ki, Azercell şirkəti tərəfindən reallaşdırılan "Tələbə Təqaüdü" proqramı çərçivəsində ötən il olduğu kimi bu il də tələbə adını qazanmış şəhid övladlarına təqaüd təqdim olunur. Bununla yanaşı, şəhidlərin ali təhsil ocağına daxil olmuş həyat yoldaşları üçün də təhsil müddətinin sonunadək hər təhsil ayı üçün 300 manat məbləğində təqaüd ayrılıb. Azercell Telekom hər zaman qadınların cəmiyyətdə öz yerini tapmasına, peşəkar kadr kimi yetişməsinə xüsusi qayğı ilə yanaşır və bu təşəbbüslə onların inkişafına bir daha töhfə vermiş oldu.

Qeyd edək ki, siyahılar "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən təqdim olunub.

Xatırladaq ki, ötən il Azercell 44 gün davam edən Vətən Müharibəsi zamanı təhsilini yarımçıq qoyaraq, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmiş tələbələrin proqram çərçivəsində dəstəklənməsi və nəticədə, Azercell tərəfindən Bakı ilə yanaşı, həm də bölgələrdəki müxtəlif ali təhsil ocaqlarının 23 tələbəsinə 200 manat məbləğində təqaüdün verilməsi qərara alınıb.

Azercell həm 44 günlük müharibə dövründə, həm də sonrakı müddətdə hər kəsə şərəf və ləyaqət nümunəsi olan şəhid və qazi ailələrini diqqət mərkəzində saxlayıb, xüsusi sosial layihələrin təşəbbüskarı və təşkilatçısı kimi çıxış edib. Şirkət tərəfindən şəhid ailəsi himayəyə götürülüb, Vətən müharibəsində şəhid olmuş və yaralanmış hərbçilərin faktura borcları ləğv edilib. Böyük amallar uğrunda canını fəda edən hərbçilərimizin övladları üçün "Böyük Ürəklərdə Kiçik Xatirələr" layihəsi çərçivəsində psixoloji dəstək məqsədilə təlimlər təşkil edilib. Həmçinin balacaların öz qəhrəman ataları haqqında xatirələrindən ibarət kitab dərc olunub. Bundan əlavə, Şanlı Azərbaycan ordusuna sonsuz hörmətin təcəssümü kimi Qələbə Günü münasibətilə müharibə veteranı statusuna malik olan bütün vətəndaşlarımızın istifadəsinə "Veteran tarifi" təqdim olunub.

# Bakıda taksi sürücülərini aldadaraq pul alan 18 yaşlı qız saxlanılıb



**Bakıda taksi sürücülərini aldadaraq pul alan 18 yaşlı qız saxlanılıb.**

DİN-in Mətbuat Xidmətindən "Şərq"ə bildirilib ki, bir neçə gün öncə xəbər saytlarında və sosial şəbəkələrdə məlumat paylaşılıb ki, Bakı şəhəri ərazisində yeniyetmə qız taksi xidmətlərindən istifadə edərək gedəcəyi ünvana çatdıqdan sonra gediş haqqını ödəmədən, o cümlədən müxtəlif bəhanələr gətirərək sürücüləri aldadıb onlardan 20-30 manat pul aldıqdan sonra yaxınlıqda olan çoxmərtəbəli binalara daxil olaraq qayıtmır. Polis əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində həmin qızın paytaxtın Yasamal rayonunda yaşayan 18 yaşlı Səriyyə İsmayılova olması müəyyən edilib:

"O, saxlanılaraq polis idarəsinə gətirilib və törətdiyi hüquqazidd əməlləri etiraf edib.

Onu da qeyd edək ki, S.İsmayılovanın hüquqazidd əməlləri ilə bağlı Bakı şəhəri üzrə ərazi polis orqanlarına heç bir şikayət xarakterli müraciət daxil olmayıb. Hazırda faktla bağlı müvafiq araşdırmalar davam etdirilir", - məlumatda bildirilir.

# Qobustanda insan sümükləri tapılıb

## Hazırda meyitin şəxsiyyətinin müəyyən edilməsi istiqamətində araşdırma aparılır



**Noyabrın 19-u saat 10 radələrində Qobustan rayonu Dərəkənd kəndi ərazisində insan skeleti sümüklərinin aşkar edilməsi faktı ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.**

Qobustan rayon prokurorluğundan verilən məlumata görə, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və insan skeleti sümüklərinə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda meyitin şəxsiyyətinin və ölüm səbəbinin müəyyən edilməsi istiqamətində rayon prokurorluğunda araşdırma aparılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2335



# Türkiyə tarixində ilk yaşandı

## Mustafa Kamal Atatürkün polad heykəli 6 aya tamamlanıb

**Bursada metaldan sənət nümunələri hazırlanan atelyenin sahibi Rıdvan Sevim Mustafa Kamal Atatürkün frak geyimli, qara perelinli (qolsuz iri yaxalıqlı üst geyimi) və silindrli fotosunu olduğu kimi polad heykələ köçürüb.**

”Şərq” ”Milliyet.com.tr”yə istinadən bildirir ki, belə bir heykəl Türkiyə tarixində ilkdir. Bundan əvvəl də R.Sevim bir çox sosial layihələrdə iştirak edib, metal heykəllər düzəldib. Atatürkün heykəlini də modern sənət üsulu ilə hazırlayıb. Heykəlin hazırlanmasında parlaq və paslanmayan poladdan istifadə edilib. 2 metrə yaxın hündürlükdə, 1700 kiloqram ağırlığında polad heykəl 6 ayda tamamlanıb. R.Sevim deyib ki, illərdir Mustafa Kamal Paşanın heykəlini düzəltməyi planlaşdırırdı, amma bu heykəlin indiyədək hazırlananlardan, mövcud olanlardan tamam fərqli görünməsini istəyib və bunun üzərində düşünüb: ”Qərara aldım ki, Qazi Mustafa Kamal Paşanın heykəlini modern üslubda hazırlayım. Çünki Atatürk deyincə, ağla gələn məhz yenilikçilik olur. Əsas məsələlərdən biri də hazırlanacaq heykəlin Atatürkün heybətini də əks etdirməsiydi. 3 ay yarım heykəlin eskizini hazırladıq. Pelerindəki dalğalar, parçanın qatları, şalvarının ütü xətti, Atatürkün yerişi, dik duruşu... hər şey olduğu kimi görünməliydi. Heykələ baxanlar bunları görməliydi. Heykəlin hazırlanmasında 5 mm.lik paslanmayan inoks lövhələrdən istifadə etdik. Heykəl 190 parçadan ibarətdir. 1 ton 700 kiloqram ağırlığındadır. 6 ay ərzində işi tamamladıq. Polad lövhələr Atatürkün əzəmətini məncə, əks etdirə bilib. Möhtəşəm görünür”. R.Sevim deyib ki, Atatürkün başqa heykəllərini də hazırlayacaq. Buna ”heykəllər seriyası” da demək mümkündür.

**Məlahət**





# Acı xəbər Türkiyəni sarsıtdı

## 3 yaşlı Müslümənin cansız bədəni tapılıb





**10 gündür axtarışları davam edən 3 yaşlı Müslümənin cansız bədəni tapılıb. ”Şərq” Türkiyə mediasına istinadən bildirirki, 3 yaşlı Müslümənin ailəsi Sarıkeçili köçərilərindəndir.** Onlar qış mövsümü başlayanda mal-qara, qoyun-keçis ürüləriylə Mərsinin sahil zolağına daşınırlar. Ailədə köçdüyü ərazidə çadır qurarkən uşaq gözdən itib. Uşağın yoxluğunu fərq edən ailəsi yerli polisə xəbər verib. Polislə yanaşı, xüsusi axtarış komandası da uşağı axtarıb. Yerli sakinlər də axtarışlara qoşulub. Lakin 10 gün keçməsinə baxmayaraq Müslümənin izi tapılmayıb. Belə olduqda dronlar da havaya qaldırılıb. Təlim görmüş itlər axtaışa cəlb edilib. Nəhayət 3 yaşlı uşağın cəsədi ailənin qaldığı ərazidən 7 kilometr aralıda tapılıb.

**Məlahət**



# Dad və qoxunu saniyəyə qaytarmaq mümkündür?

## Sosial mediada maraqlı üsullar paylaşılır, türk professor açıqlama verib

**Bu yaxınlarda sosial mediada koronavirusdan sonra təsadüf olunan qoxu itkisini saniyələr ərzində bərpa etdiyi iddia edilən bir üsulla bağlı video yayılıb. Beləliklə, bu metodun işə yarama ehtimalı varmı? Üz və başdakı bəzi nöqtələrə vurularaq tətbiq edilən bu üsulla bağlı türkiyəli professor Dr. Aytuğ Altundağ təəccüblü xəbərdarlıqlar edib.**

Bir çox insan koronavirus zamanı və ya ondan sonra qoxu ala bilməmək və dad itkisi kimi simptomlar yaşayır. Bu simptomların qısa və ya uzun sürməsi ilə bağlı bir çox müxtəlif elmi araşdırmalar və izahlar var. Bəzən 6 ay gözləyin deyilənlər bəzən geri dönmür. Buna görə də dünyanın bir çox həkimləri qoxunu geri qaytarmaq üçün maraqlı üsulları paylaşırlar. Dr. Kevin W. Rossun qoxu və dad itkisini saniyələr ərzində bərpa etdiyini iddia etdiyi texnika sosial mediada gündəm olub. Bəs, bu üsul necə tətbiq olunur? Əvvəlcə sağ əl ürəyin üzərinə gətirilir. Sonra sol şəhadət barmağı ilə iki qaşın ortasına toxunaraq qoxu siniri stimullaşdırılır. Kiminsə köməyi ilə başın arxa hissəsinin çıxıntılı (oksipital sümük) hissəsi vurulur. Eyni prosesin dilin ucu ilə təkrarlanmasından sonra dad probleminin həll olunduğu iddia edilir. Bütün yuxarı tənəffüs yolları infeksiyalarında müvəqqəti qoxu hissi itkisi yaşana bilər. Bəzi hallarda qoxu pozğunluğu uzunmüddətli, bəzi hallarda isə qalıcı ola bilər. Koronavirus isə digərlərindən fərqli olaraq daha yüksək sürətlə qoxu pozğunluğuna səbəb olan viral xəstəliklər arasındadır.

Bunun səbəbini açıqlayan Aytuğ Altundağ bunları deyib: ”Virusun hüceyrəyə daxil olarkən istifadə etdiyi reseptorlar burundakı iybilmə ilə bölgədəki dəstək hüceyrələrində çox sıx şəkildə yerləşir. Virus hüceyrənin içinə girib çoxaldıqca bu bölgədə uyğun qapılar tapır, koronavirusda çox yüksək qoxu itkisi ilə qarşılaşırıq. Elmi araşdırmalarımızda bu xəstə qruplarının nisbətlərini təyin etdik və proses haqqında çox əhəmiyyətli məlumatları beynəlxalq elmi jurnallarda dərc etdik. Beləliklə, bu sualın cavabı həm bəli, həm də yox. Türkiyədə pandemiya zamanı qoxu hissini itirən, lakin sağalmış milyonlarla insan olsa da, hələ də şikayətləri davam edən xəstələr var. Bütün bunları ayırd etmək üçün bu xəstələrə ”qoxu testi” etmək lazımdır”.

**Aytuğ Altundağ bildirib ki, şəxsin qoxusunun kəskinliyi və eyni zamanda hansı qoxunun nə kimi qəbul edildiyi müəyyən olunarsa, itkinin qalıcı olub-olmayacağı ilə bağlı daha dəqiq məlumat əldə ediləcək:** ”Koronavirus səbəbiylə qoxu itkisi ilə bağlı təcrübəmizdən və tətbiq etdiyimiz müalicə üsullarından çox faydalandıq. Bu, bir çox xəstəmizin tez sağalmasını təmin etdi. Koronavirusda itirilmiş qoxu itkisi ilk 14 gündə böyük ölçüdə geri gəlir. Bəzilərində 1 və ya 6 ay davam edə bilir. ”K-9” adlı burnu olanlar qoxu itkisindən digər insanlara nisbətən çox daha kəskin şəkildə əziyyət çəkirlər. Bu insanlara dəyən zərərin daha şiddətli və uzun müddət davam etməsi ehtimalı daha yüksəkdir. Həmin şəxslər xəstəlikdən əvvəlki həyatlarında qoxuları normal fərdlərdən fərqli bir zənginlikdə qəbul etdikləri üçün itkilərə qarşı daha həssas olurlar. Ətirli məşq əsasında gündə 2 dəfə müxtəlif ətirli yağlar, 9 ay ərzində qızılgül-limon və ya mixək-evkalipt kimi qoxuların xəstələrə əhəmiyyətli faydaları var. Yəni yalnız qoxu idmanı ilə tam sağlamlığa qayıtmaq mümkündür”.

**Aynurə Pənahqızı**




# İstifadə etməyin!

## Koronavirusa qarşı “Favipravir” dərmanı təsirsizdir

**Pandemiyanın başlanğıcından COVİD-19-un müalicəsində təyin edilən ”Favipravir” dərmanın təsirsiz olduğu müəyyənləşib. Bu nəticəyə preparat üzərində aparılan klinik araşdırımalardan sonar gəlinib.**

**CNN Türk xəbər verir ki, analizlərin nəticəsi mənfi olduğundan, dərmanın COVİD-19-a qarşı istifadədən çıxarılması tələb edilir. Adıçəkilən dərman preparatı ABŞ, Meksika və Braziliyada COVİD-I yüngül və orta ağırlıqda keçirmiş 1231 xəstə üzərində klinik araşdırma aparılıb. Məlum olub ki, virusa yoluxmuş bu insanların müalicəsində dərmanın heç bir təsiri olmayıb. Koronavirus Elmi Mərkəzinin üzvü, doktor ŞimşəkYavuz şəxsi Twitter hesabında dərmanın təsirsiz olduğunun müəyyənləşdiyini qeyd edib. ”KLİMİK” Dərnəyi İdarə Heyətinin üzvü professor Öndər Ergönül isə bunları deyib:**

**”Favipravir” təsirli olsaydı, Türkiyədə xəstəlikdən ölənlərin sayı da az olardı. Bu dərman insanda koronavirus təsbit edilən kimi evlərə daşınır. Ancaq buna rəğmən ölüm faizi yüksəkdir. Biz 1 ildir bu dərmanın təsirsiz olduğunu söyləyirik. Amma fikir verən yoxdur. Dünyada bizdən savayı bu dərmandan istifadə edən qalmayıb. Biz də isə hələ də istifadə edilir. Başlanğıcda bəlkə də başqa çarə yoxdu. Amma artıq bir sıra yeni dərmanlar var. Bu dərmandan imtina etməmək üçün bir səbəb qalmayıb”.**

**Məlahət**

# Knyaginya ölkədən yenə getdi

## II Albert bildirib ki, Şarlen gizli bir yerdədir və dincəlməyə ehtiyacı var



**Uzun müddətdən sonra ötən həftə evinə qayıdan knyaginya Şarlen yenidən itib.**

**Axşam.az xarici mediaya istinadən xəbər verir ki, Afrikadan qayıtdığı gündən onu heç kimin görmədiyi bildirilib. O, bəlli olmayan səbəbdən yenidən ölkəsindən gedib.**

**Monako knyazı II Albert xəbərləri təsdiqləyib. O, Dubaya gedərək, oradakı böyük sərgiyə həyat yoldaşı olmadan qatılıb. Bacısı, şahzadə Stefanno və 19 yaşlı oğlu Lui də onun yanında olub.**

**43 yaşlı knyaginya Monakodan gedərkən övladlarını da özü ilə aparmayıb. II Albert bildirib ki, Şarlen gizli bir yerdədir və dincəlməyə ehtiyacı var.**

**”Yaxşısı budur onu narahat etməyək. Fiziki olaraq yorulub. Dincəlib geri qayıdacaq. Övladımız Jak və Qabriella anası üçün çox darıxırdı, amma onların başını qatmağı bacardım” deyə, o, bildirib.**

# Məşhurların bilinməyən xəstəlikləri və vərdişləri...

## Beren Saatın dırnaqlarını gəmirmək kimi pis bir vərdişi olub



**Məşhurlar pərəstişkarlarına şən, qayğısız, problemsiz həyat keçirir kimi görünə bilər. Lakin onların da həyatlarında baş edə bilmədikləri problemləri, hətta xəstəlikləri, ya da mənfi vərdişləri var. ”Şərq” Türkiyə mediasına istinadən bəzi məşhurların içində çabaladığı problemləri açıqlayır.**

**Sevilən aktrisa Beren Saatın dırnaqlarını gəmirmək kimi pis bir vərdişi varmış.** Uzun müalicədən sonra aktrisa nəhayət ki, dırnaqlarını ”yeməkdən” xilas ola bilib. Aktyor və aktrisalar üçün ümimiyyətlə, dırnaq gəmirmək çox pis bir vərdiş hesab edilir. Bir çox aktyorlar çəkiliş meydançasındakı stres ucbatından bu pis vərdişə yiyələnirlər.

**Sərtab Erener kolit xəstəliyi ilə uzun müddət mücadilə edib.** Türkiyə və ABŞ-da müalicə alıb. Xəstəlikdən qurtulmaq üçün böyük miqdarda pul da xərcləyib. Sonunda xəstəlikdən xilas olub.

**Sezen Aksu - türk musiqisinin ”minik sərçəsi” illərdir panik-atakla mücadilə edir.** Uzun illər müalicə almasına baxmayaraq hələ də bu rahatsızlıqdan yaxa qurtarmayıb.

**Bəyazit Öztürk badamcıqlarındakı xroniki xəstəlik üzündən tez-tez həkimə müraciət edir**. Badamcıqları xəstə olduğu üçün yeyib-içdiyinə daim diqqət etmək, soyuq içkilərdən uzaq durmaq məcburiyyətindədir.

**Ebru Gündeş 2000-ci ildə musiqi albomunun təqdimatı zamanı kameralar önündə yerə yıxılması bu gün də pərəstişkarlarının xatirindədir.** Məlum olduğu kimi Ebru Gündeş o zaman beyin travması keçirmişdi, əməliyyat olundu, uzun müddət də müalicə aldı. Ebru Gündeş beyin damarlarında əmələ gələn baloncuqlar səbəbindən vaxtaşırı həkim müayinəsinə gedir.

**Dəfnə Samyeli isə döş xərçənginə yaxalanmışdı.** Müalicə müddətində xərçəngə, o cümlədən də döş xərçənginə ”cəbhə” açması, bu xəstəlikdən əziyyət çəkən qadınlara dəstək olması ilə fərqləndi.

**Seda Sayanın tiroid vəzi (zob xəstəliyi də deyə bilərik) rahatsızlığı var.** Müntəzəm dərmanlar qəbul edir. Bu xəstəliyin çarəsi bilinmədiyi üçün ünlü ifaçı diqqətli davranmalıdır. Adicə nahar etdiyi zaman da anidən rahatsızlana bilər, çünki.

**Nurseli İdizdə isə depressiv xəstəlik sayılan bipolar pozğunluğu vardır.** Gah özünü yaxşı hiss edir, gah da heç bir əsaslı səbəb olmadan halı pisləşir, depressiyaya düşür.

**Kıvanc Tatlıtuğ bir müddət yuxusuzluq sindromu ilə mübarizə aparıb.** Çətin günlər yaşayıb. Lakin müalicə nəticəsində xəstəlikdən xilas olub.

**Məlahət**